

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 13 (703) ■ 9 aprel 2014 www.vergiler.az Qiyməti: 40 qəp.


# Azərbaycan -Türkiyə əlaqələri dostluq, qardaşlıq üzərində qurulub

## Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına işgüzar səfəri

*Aprelin 4-də Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycana işgüzar səfər etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşündə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi, enerji, nəqliyyat və bütün digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunmuş, səfərin ikitərəfli əlaqələrin daha da genişlənməsi baxımından önəmi qeyd edilmişdir. Azərbaycan və Türkiyə arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunmuşdur.*



Sonra Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur. Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanı rəhbərlik etdiyi partiyanın bələdiyyə seçkilərində qazandığı qələbə münasibətilə ürəkdən təbrik etmiş, Türkiyə-Azərbaycan əlaqələrinin çox möhkəm zəmin, dostluq, qardaşlıq üzərində qurulduğunu, strateji partnyorluq, tərəfdaşlıq səviyyəsinə qalxdığını diqqətə çatdırmışdır.

Geniş tərkibdə görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın birgə mətbuat konfransı olmuşdur. Prezident İlham Əliyev bəyanatla çıxış edərək bildirmişdir ki, son illərdə Türkiyə böyük və şərəfli yol keçmiş, iqtisadi, siyasi, sənaye potensialını xeyli artırmışdır: «Türkiyə bu gün böyük 20-lərin sırasındadır. Dünyanı bir neçə il bundan əvvəl bürümüş iqtisadi və maliyyə böhranı Türkiyəyə heç bir təsir etməmişdir». Dövlətimizin başçısı Türkiyənin uğurlarını Azərbaycanın uğurları kimi qəbul etdiyini, bu gün Türkiyə-Azərbaycan əlaqələrinin dinamik inkişaf dövrünü yaşadığını vurğulamışdır: «Biz bütün sahələrdə qardaş, dost kimi birgə fəaliyyət göstəririk. Bugünkü səfər əsnasında apardığımız danışıqlar və etdiyimiz söhbətlər bir daha bizim birliyimizi təsdiq edir. Biz siyasi sahədə müttəfiqik. Bu gün dünyada ikinci belə ölkələr tapılmaz ki, bir-birinə Türkiyə-Azərbaycan kimi yaxın olsunlar. Biz iqtisadi sahədə böyük layihələrə imza atırıq. Qarşılıqlı sərmayə qoyuluşu uğurla həll edilir və Azərbaycan sərmayələri Türkiyəyə, Türkiyə sərmayələri Azərbaycana yatırılır. Bu proses uğurla davam etdirilir. Növbəti 7-8 il ərzində təqribən 20 milyard dollara yaxın Azərbaycan sərmayəsi Türkiyə iqtisadiyyatına yatırılacaqdır. Bu da bizim xaricə yatırdığımız ən böyük sərmayədir. Bizi birləşdirən enerji layihələri vardır. Biz bu layihələri bərabər icra edirik. Türkiyə və Azərbaycan bu layihələrin icrasında öz liderlik rolunu göstərir. Artıq bu layihələr regional çərçivədən çıxıb və dünya miqyaslı layihələrdir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TANAP layihələri dünyanın enerji xəritəsini dəyişdirmişdir».

Prezident İlham Əliyev iki ölkə arasında hərbi sahədə əməkdaşlıq haqqında fikir mübadiləsinin də aparıldığını, bu sahədə də çox yaxşı imkanlar, perspektivlər və nəticələrin olduğunu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Türkiyənin dəstəyinə görə minnətdarlığını bildirmişdir.

Baş nazir Rəcəb Tayyib Ərdoğan isə bəyanatında bir daha vurğulamışdır ki, Türkiyə Dağlıq Qarabağ mövzusunda indiyə qədər necə bir qətiyyət, mövqe göstəribsə, bundan sonra da yenə eyni qətiyyətli mövqedə olmaqda davam edəcək: «Burada güzəştə getməyimiz əsla müzakirə mövzusu ola bilməz. Bunun xüsusilə ekran qarşısında bizi izləyənlərin bilməsini bir daha istəyirəm. Bu baxımdan bunu ifadə edirəm».

R.T.Ərdoğan Azərbaycan-Türkiyə arasındakı ikitərəfli əlaqələrin yaxşı perspektivinin olduğunu, xarici ticarət dövriyyəsinin təqribən 15 milyard dollara çatması üçün əsaslı bünövrənin günbəgün daha da möhkəmləndiyini diqqətə çatdırmışdır. «Türkiyədəki Azərbaycan sərmayələrinin hədəfləri həqiqətən çox böyükdür. Bunların ən əhəmiyyətlisi də təbii ki, TANAP layihəsidir. Bu layihə ilə əlaqədar başlanan rəsmiləşdirmə işləri ilə bağlı Nazirlər Kabinetinin qərarı da qəbul edilmişdir. Qarşıdakı aylarda, inşallah, burada addımlar atılacaq və TANAP-la bağlı 2018-ci il hədəfinə nail olacağımız an inanıram ki, bu beynəlxalq layihə aramızdakı qardaşlığımızı qat-qat gücləndirəcəkdir».

Sonra Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarını cavablandırmışlar. Bildirilmişdir ki, regionda strateji əhəmiyyət kəsb edən ən mühüm layihələrin həyata keçirilməsində Türkiyə və Azərbaycan rəhbərliyinin iradəsi və qətiyyəti böyük rol oynamış və bu layihələr qardaş ölkələri bir-birinə daha da sıx bağlayacaq, siyasi və iqtisadi imkanlarımızı xeyli artıracaqdır.

# Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Naxçıvan Muxtar Respublikasına səfər etmişdir. Dövlətimizin başçısını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov qarşılamışdır.*

Prezident İlham Əliyev əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur. Dövlətimizin başçısına abidənin ətrafında aparılan abadlıq və yenidənqurma tədbirləri barədə məlumat verilmişdir.

Sonra Azərbaycan Prezidenti Kəngərli Rayon Mərkəzi Xəstəxanasının yenidənqurmadan sonra açılışında iştirak etmişdir. Bildirilmişdir ki, tibb ocağı Qıvraq kənd sahə xəstəxanasının bazasında yaradılmışdır. Qıvraq qəsəbəsində uyğunlaşdırılan binada yerləşən xəstəxana üçün 2006-cı ildə yeni bina tikilərək istifadəyə verilmişdir. Məlumat verilmişdir ki, Kəngərli rayonunda 30 mindən çox əhaliyə xidmət edəcək xəstəxananın binasında ən müasir səviyyədə əsaslı yenidənqurma işləri aparılmışdır. Xəstəxanada yaradılmış şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev xidmətin yüksək səviyyədə təşkili ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

Prezident İlham Əliyev həmin gün Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir. Yeni kompleks Naxçıvan şəhərində 90 minə yaxın əhalini və sənaye obyektini fasiləsiz olaraq ekoloji cəhətdən təmiz su ilə təmin edəcəkdir. 2009-cu ildən etibarən muxtar respublikanın paytaxtında və rayon mərkəzlərində də içməli su və kanalizasiya sistemlərinin yenidən qurulmasına başlanılmışdır.

Azərbaycan Respublikasının Prezidenti Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolunun açılışında da iştirak etmişdir. Yüksək səviyyədə inşa edilən bu yol nəqliyyatın rahat və maneəsiz hərəkətinə tam zəmin yaradır. Ümumi uzunluğu 88,8 kilometr olan yolda tikinti işləri keyfiyyətlə aparılmış, iki il müddətində başa çatdırılmışdır. Müasir tələblər səviyyəsində qurulan yolda nəqliyyatın təhlükəsiz hərəkəti təmin edilmişdir. Yeni yol təkcə Naxçıvan şəhəri və Şahbuz rayonu üçün deyil, ümumilikdə muxtar respublika üçün mühüm iqtisadi əhəmiyyətə malikdir.

Dövlətimizin başçısı həmin gün Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun yeni inzibati binasının açılışında iştirak etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov məlumat vermişdir ki, altı mərtəbədən ibarət olan və xüsusi memarlıq quruluşuna malik binada hərbi prokurorluq əməkdaşlarının fəaliyyəti üçün hər cür şərait yaradılmışdır.



Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev aprelin 7-də «N» saylı hərbi hissədə Naxçıvan Muxtar Respublikasının hərbi hissələrinə daxil olan yeni texnika və silahlara baxmışdır.

Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində həmin gün Gənclər Mərkəzinin açılışında da iştirak etmiş, rəmzi açılışı bildirən lenti kəsmişdir. Gənclər Mərkəzində kompüter otağı, elektron kitabxana, intellektual və stolüstü oyun zalları, interaktiv tir və kafe fəaliyyət göstərir. Mərkəzdə informasiya texnologiyalarının ən son nailiyyətləri tətbiq edilmiş, kompüterlərin hər birinin internetə çıxışı təmin olunmuşdur. Mərkəzdə xarici dillərin tədrisi üçün linqafon sinifləri yaradılmışdır.

Sonra Azərbaycan Respublikasının Prezidenti yeni yaradılan «Naxçıvanqala» Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olmuşdur. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə ötən il burada «Naxçıvanqala» Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması barədə qərar qəbul edilmişdir. Kompleksin ətrafında və daxilində geniş abadlıq-quruculuq işləri aparılmış, işıqlandırma sistemi quraşdırılmış və yaşıllıq zolaqları salınmışdır.

Ölkə başçısı sonra Naxçıvan Beynəlxalq Hava Limanının yeni inzibati binasının açılışında da iştirak etmişdir. Qeyd olunmuşdur ki, burada Naxçıvan Beynəlxalq Hava Limanının və Naxçıvan Aeronaviqasiya xidmətinin əməkdaşları üçün hərtərəfli şərait yaradılmışdır. Yeni binada hava gəmilərinə texniki xidmət sahəsi, daşımaların təşkili, aviasiya təhlükəsizliyi, hava hərəkətinin idarə edilməsi, aviasiya-metrologiya və digər aidiyyəti xidmətlər fəaliyyət göstərir. Binada akt və konfrans zalları, həmçinin işçilərin xarici dillərə yiyələnmək üçün tədris otağı yaradılmışdır. Diqqətə çatdırılmışdır ki, aerovağzal binasının yenidən qurulmasından sonra aeroportun sərnişin qəbulu və yola salma imkanları saatda 450-500 nəfərə çatacaqdır. Bu isə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikası hava limanının strateji əhəmiyyətini daha artıracaqdır. Binanın istifadəyə verilməsi Naxçıvan Beynəlxalq Hava Limanının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər sırasında özünəməxsus yeri ilə seçilir.


2 Yeni nəsil nağdsız ödəniş cihazlarının ölkəmizdə tətbiqi imkanları qiymətləndirilir

4 İKT-nin dinamik inkişafına təkan verəcək yeni strategiya

5 Azərbaycanın iqtisadi sahədə beynəlxalq nüfuzu yüksəlir

6 Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

# Yeni nəsil nağdsız ödəniş cihazlarının ölkəmizdə tətbiqi imkanları qiymətləndirilir

*Vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov «Trend» İnformasiya Agentliyinin suallarını cavablandırmışdır. Müsahibəni oxucularımızın diqqətinə çatdırırıq.*

***- Natiq müəllim, yola saldığımız 2013-cü il vergi sistemində hansı yeniliklərlə yadda qaldı?***

- 2013-cü il ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisələrlə yadda qalmışdır. Bunların sırasında ən önəmlisi ulu öndər Heydər Əliyevin layiqli davamçısı cənab İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsidir ki, bu da həyata keçirilən uğurlu sosial-iqtisadi strategiyanın davam etdirilməsinə zəmin yaratmaqla ölkə iqtisadiyyatının dinamik və davamlı inkişafına yeni impuls vermişdir.

Ötən ilin xüsusi yadda qalan hadisələri arasında «İKT ili» çərçivəsində birinci Azərbaycan peyki «Azərspace 1»in fəzaya qaldırılmasını, dünyanın bir nömrəli iqtisadi qurumu olan Dünya İqtisadi Forumunun (Davos Forumu) toplantısını, eləcə də bir sıra beynəlxalq mötəbər tədbirlərin Bakıda təşkilini, ölkə iqtisadiyyatına rekord həcmdə - 28 milyard dollar investisiya qoyulmasını, «Şahdəniz-2» investisiya sazişinin imzalanmasını və digər uğurlu layihələrin həyata keçirilməsini xüsusi vurğulamaq olar.

Göründüyü kimi, ölkə Prezidentinin yeni dövr üçün müəyyən etdiyi prioritet vəzifələr iqtisadiyyatda və dövlət idarəçiliyinin bütün sahələrində, o cümlədən vergi xidmətinin fəaliyyətində yüksək nailiyyətlərin əldə edilməsinə imkan vermişdir.

«İKT ili» çərçivəsində vergi sistemi üzrə elektron xidmətlərin genişləndirilməsi tədbirlərinin davamı olaraq, ötən il «ASAN imza» layihəsinin reallaşdırılmasına nail olunmuşdur. Ölkəmizdə rəqabətqabiliyyətli və ixrac yönümlü İKT potensialının gücləndirilməsi və nağdsız hesablaşmaların genişləndirilməsi istiqamətində uğurlu layihələrdən hesab olunan «ASAN imza» biznesin mobil texnologiyalardan idarə edilməsi istiqamətində ilk addım hesab olunur. Bu layihə inzibatçılığın müasirləşdirilməsi ilə yanaşı, ölkəmizdə İnternet/mobil bankçılığın inkişafına böyük təkan verməklə nağdsız hesablaşmaları artıracaqdır. Hazırda «ASAN imza» mobil rəqəmsal imza sahiblərinin sayı 23 min nəfəri ötmüşdür. Mobil elektron imzanın istifadəsi üzrə əməliyyatların ümumi sayı isə 2 milyondan çoxdur.

Avropanın keyfiyyət və təhlükəsizlik üzrə bütün tələblərinə cavab verən «ASAN imza» layihəsi 19 fevral 2014-cü il tarixdə Brüsseldə - Avropa Parlamentində Azərbaycanın orijinal məhsulu kimi təqdim olunmuşdur. Bununla yanaşı, elektron auditin tətbiqinə başlanılması, vergi partnyorluğu sazişlərinin bağlanması üçün normativ bazanın yaradılması və digər mühüm layihələrin həyata keçirilməsi 2013-cü ilin vergi sahəsində əsas yeniliklərindəndir.

Ötən il ölkəmiz İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) «Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forum»una qoşulmuşdur. Bununla yanaşı, Vergilər Nazirliyi ilk dəfə olaraq Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) İcraiyyə Şurasına və Beynəlxalq Antikorrupsiya Akademiyasının Assambleyasının (IACA) Bürosuna üzv seçilmişdir.

Bütün bunlar Azərbaycanın dünya miqyasında imicinin möhkəmlənməsi və vergi sisteminin beynəlxalq vergi sisteminə uğurla inteqrasiyasının əyani göstəricisidir.

***- 2013-cü il ərzində Azərbaycanın vergi xidmətinin fəaliyyətinin nəticələrini necə qiymətləndirirsiniz?***

- Ölkə iqtisadiyyatının dinamik inkişafına uyğun olaraq vergi sisteminin təşkilati-nəzarət potensialının gücləndirilməsi, vergi inzibatçılığının bütün sahələrində müasir İKT-nin tətbiqi, inzibati idarəetmənin keyfiyyətcə yaxşılaşdırılması və avtomatlaşdırılması qısa müddətdə vergi xidmətinin fəaliyyətində yüksək uğurlara imza atmağa imkan vermişdir.

Bütün bunlar, təbii ki, büdcə qarşısında olan fiskal vəzifələrin yerinə yetirilməsi prosesi ilə paralel şəkildə aparılmışdır.

*Ötən il Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə 6,4 milyard manat proqnoza qarşı 6,7 milyard manat vəsaitin daxil olması təmin edilərək proqnoza 104,1% əməl edilmişdir*

Məlumat üçün qeyd edim ki, ötən il Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə 6,4 milyard manat proqnoza qarşı 6,7 milyard manat vəsaitin daxil olması təmin edilərək proqnoza 104,1% əməl edilmişdir. Bu da 2012-ci ilin göstəricisindən 10,6% çoxdur.

İqtisadiyyatda qeyri-neft-qaz sektorunun inkişafının prioritet kimi müəyyən edilməsi və bu istiqamətdə ölkə üçün əhəmiyyətli kompleks tədbirlərin reallaşdırılması nəticəsində bu sahədə də artım tempi saxlanılmışdır. Ötən il qeyri-neft-qaz sektorundan dövlət büdcəsinə vergi daxilolmaları 2012-ci illə müqayisədə 14%-dən çox artaraq 3,8 milyard manat təşkil etmişdir. Bu sektordan daxilolmaların ümumi daxilolmalarda xüsusi çəkisi 2012-ci ildəki 54,5%-dən 56,4%-ə yüksəlmişdir.

Özəl sektorun iqtisadiyyatda sürətlə inkişafı nəticəsində bu sahədən vergi daxilolmalarının xüsusi çəkisi 2013-cü ildə 72,4%-ə yüksəlmişdir.

***- Nağdsız ödənişlərin təşviqi prosesi 2013-cü ildə də davam etdirilib. Regionlarda əhalinin POS-terminallardan istifadə etməsinin stimullaşdırılması üçün hansı tədbirlər planlaşdırılıb?***

- Nağdsız ödənişlərin təşviqi, həmçinin POS-terminalların quraşdırılması məsələsi öz aktuallığını saxlamaqdadır. Hazırda qarşıda duran prioritet vəzifələrdən biri nağdsız ödənişlər üçün müvafiq infrastrukturun yaradılması, bu sahədə stimullaşdırıcı tədbirlərin keçirilməsi və əhalinin fəallığının artırılmasıdır. Nağdsız ödənişlər infrastrukturunun təkmilləşdirilməsi məqsədilə ən qabaqcıl beynəlxalq təcrübə araşdırılaraq təhlil edilir, yeni nəsil ödəniş cihazlarının ölkəmizdə tətbiqi imkanları qiymətləndirilir.

Nağdsız ödənişlərin stimullaşdırılması layihəsi çərçivəsində keçən il Vergilər Nazirliyinin nümayəndələri, bank strukturları və Mərkəzi Bankın rəhbərliyi görüşlər keçirmiş, bir sıra banklar tərəfindən plastik kartla ödəniş zamanı müxtəlif stimullaşdırıcı kampaniyalar təşkil edilmişdir. Vergi ödəyicilərinin və onların nümayəndələrinin nağdsız ödənişlərin əhəmiyyəti və əlverişliliyi haqda maarifləndirilməsi məqsədilə müxtəlif tədbirlər keçirilmişdir.

Aparılan tədbirlərin nəticəsi olaraq ölkənin regionlarında POS-terminalların tətbiqi sürətlənmiş, POS-terminallarla aparılan hesablaşmaların həcmi artmışdır. 2013-cü il ərzində Vergilər Nazirliyi tərəfindən 7048 ədəd POS-terminal qeydiyyata alınmışdır. Hazırda paytaxtda və regionlarda POS-terminalların tətbiqinin sürətləndirilməsi ilə bağlı tədbirlər davam etdirilir.

***- Vergi partnyorluğu ilə bağlı məsələyə toxundunuz. Bugünədək nə qədər belə saziş imzalanıb? Layihənin icra vəziyyəti nazirliyi qane edirmi?***

- Ötən ildən vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin qarşılıqlı etimada əsaslanan partnyorluq sazişləri əsasında qurulmasına başlanılmışdır. Partnyorluq münasibətlərinin qurulması qabaqcıl dünya ölkələrinin vergi sistemində tətbiq olunan mütərəqqi inzibatçılıq metodu olmaqla, ilk növbədə, vergi qanunvericiliyinə əməletmə səviyyəsinin yüksəldilməsinə xidmət etməlidir.

Partnyorluq sazişinin bağlanması vergi ödəyiciləri üçün maksimum əlverişli mühitin formalaşdırılmasına, onların maraq və mənafeyinə xidmət edir. Bu da gələcəkdə vergi ödəyicisinin vergidən yayınma risklərini minimallaşdırmaqla onların əlavə maliyyə itkilərinin qarşısının alınması məqsədi daşıyır. Eyni zamanda, bu layihə vergi orqanları ilə vergi ödəyiciləri arasında yaranan mübahisələrin minimuma endirilməsi və inzibatçılıq xərclərinin aşağı salınmasına istiqamətlənib.

Hazırkı dövrə vergi ödəyicilərindən vergi orqanlarına partnyorluq sazişinin bağlanılması ilə əlaqədar minə yaxın müraciət daxil olmuş, artıq onlardan 78%-i ilə saziş imzalanmışdır.

Layihənin icrasının hazırkı vəziyyəti nazirliyi qane edir. Lakin bununla kifayətlənmək niyyətində deyilik və bu istiqamətdə həyata keçirilən tədbirlər davam etdiriləcəkdir.

***- Bir müddət öncə Azərbaycanda elektron auditin tətbiqinə başlanılıb. Bu layihənin icrası sahəsində vəziyyət necədir?***

- Son illər ərzində Vergilər Nazirliyi tərəfindən vergi inzibatçılığının müasir tələblər səviyyəsində qurulması məqsədilə bir sıra mühüm layihələr, o cümlədən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi, elektron bəyannamələr, ƏDV depozit hesabı, elektron vergi hesab-fakturası, elektron qeydiyyat, elektron ödəniş, mobil imza və bu kimi digər layihələr həyata keçirilmişdir.

Qeyd etmək istərdim ki, AVİS-in texniki imkanları olduqca geniş layihələndirilmişdir. Bu sistem vergi sistemində İKT və elektron xidmətlər sahəsində mövcud olan ən müasir təcrübələri tətbiq etməyə imkan verir. AVİS-in mövcud infrastrukturu əsasında vergi orqanlarında kifayət qədər əhatəli məlumat bazası, səmərəli təhlil mexanizmi və elektron auditin tətbiqi üçün zəruri imkanlar yaradılmışdır.

Elektron audit üzrə müvafiq hüquqi bazanın formalaşdırılması məqsədilə ötən ilin əvvəlindən Vergi Məcəlləsinə e-audit proseslərinin hüquqi əsaslarını tənzimləyən yeni maddələr daxil edilmişdir. Azərbaycanda fəaliyyət göstərən müəssisələrin sahə spesifikliyi nəzərə alınmaqla audit testləri və e-auditin tətbiqi üçün metodik tövsiyələr hazırlanmışdır.

Ötən il bir sıra şirkətlərdə ilkin testlər həyata keçirilmişdir. Bunlar iqtisadiyyatın müxtəlif sektorlarını, o cümlədən neft, bank və ticarət sahələrini əhatə etmişdir ki, bu da hər bir sahənin spesifikliyinin və e-auditin bu sahələrdə necə işləməsinin qiymətləndirilməsi məqsədi daşıyır.

Vergidən yayınma risklərinin təhlilinin avtomatlaşdırılmış qaydada aparılması nəticəsində bir yoxlamaya sərf olunan vaxt və insan resurslarının həcminin əsaslı şəkildə azalması, aparılan yoxlamaların səmərəliliyinin yüksəlməsi, vergi nəzarətində müasir metodların tətbiqi, qarşılıqlı təhlillərin aparılması və digər üstünlüklər e-auditin tətbiqini zəruri edir. Bununla əlaqədar hazırda e-auditin əhatə dairəsinin genişləndirilməsi, vergi ödəyicilərində e-mühasibat uçotunun yaradılması, bu sahədə işləyəcək vergi əməkdaşlarının xüsusi treninqlərə cəlb olunması istiqamətində işlər davam etdirilir.

**Davamı 3-cü səhifədə**

# Bakıda beynəlxalq turizm və səyahətlər sərgisi keçirilmişdir

*3-5 aprel tarixlərində Bakı Ekspo Mərkəzində 13-cü dəfə keçirilən Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər (AITF) sərgisi ölkəmizdə və ümumilikdə Qafqazda turizm sənayesinin ən böyük ixtisaslaşdırılmış tədbiridir. AITF sərgisi regionun müasir turizm bazarının ümumi mənzərəsini əks etdirməklə yanaşı, dünyanın müxtəlif bölgələrini əhatə edən beynəlxalq platforma kimi fəaliyyət göstərir.*




«Bütün dünya. Bir sərgi» şüarı altında keçən «AITF-2014» sərgisində 38 ölkədən 351 şirkət və təşkilat iştirak etmişdir. Azərbaycan, Argentina, Bolqarıstan, Macarıstan, Yunanıstan, Gürcüstan, Dominikan Respublikası, Misir, Xorvatiya, Hindistan, İndoneziya, İtaliya, Çin, Malayziya, Mərakeş, Sloveniya, Rusiya, Tailand, Türkiyə, Fransa, Monteneqro və Çexiya Respublikası kimi daimi iştirakçı ölkələrdən tədbirdə 24 milli və regional qrup iştirak etmişdir.

Sərginin rəsmi açılış mərasimində Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak etmişlər.

Sərgidə Azərbaycan Respublikasının Vergilər Nazirliyi öz guşəsi ilə tədbir iştirakçılarının, xüsusilə xarici və yerli sahbkarların böyük marağına səbəb olmuşdur. Tədbir ərzində nazirliyin vergi ödəyicilərinə xidmət strukturlarının əməkdaşları tərəfindən iştirakçıları maraqlandıran suallar cavablandırılmış, çoxlu sayda məlumat xarakterli materiallar və nəşrlər paylanmışdır.

# Qanun pozuntularının qarşısı alınır

2014-cü ilin mart ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 4972 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkarlanmışdır. 2535 vergi ödəyicisi tərəfindən nağd hesablaşmaların aparılması qaydalarının pozulduğu, 602 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz olaraq alınıb-satıldığı və ya dəyişdirildiyi, 676 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edimişdir.

Araşdırmalar zamanı 644 vergi ödəyicisinin 753 nəfər fiziki şəxsi əmək müqaviləsi bağlamadan işə cəlb etdiyi, 304 vergi ödəyicisinin fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıdığı, 80 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış 317 ədəd mal olduğu müəyyən olunmuşdur.

Aşkar edilmiş faktlarla bağlı qanunvericiliyə uyğun tədbirlər görülmüşdür.

# Qaydalar təkmilləşdirilir

*Nazirlər Kabinetinin yeni qərarlarına əsasən, elektron vergi hesab-fakturalarının tətbiqi, uçotu və istifadə qaydalarına bir sıra əlavə və dəyişikliklər edilmişdir.*

İndiyə qədər vergi ödəyiciləri İnternet Vergi İdarəsinə vergi orqanı tərəfindən verilmiş istifadəçi kodu, parol və şifrədən istifadə etməklə daxil olaraq elektron vergi hesab-fakturasını hazırlayıb təsdiqləyərək təqdim edirdilər. Ödəyicilər təhlükəsizlik baxımından istifadəçi kodu, şifrə və parolu məxfi saxlamalı, bu məlumatlar unudulduqda və ya başqaları tərəfindən istifadə edildiyi məlum olduqda 2 gün müddətində uçotda olduğu vergi orqanına yazılı məlumat verməli idilər.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu qaydalarda dəyişikliklər etmişdir. «Elektron vergi hesab-fakturalarının tətbiqi, uçotu və istifadə Qaydaları»na edilmiş dəyişikliklərə əsasən, bəzi müddəalar qaydalardan çıxarılmışdır. Yeni qərara görə, satıcı elektron vergi hesab-fakturasını vergi orqanından alınmış istifadəçi kodu, parol və şifrə, yaxud əldə edilmiş gücləndirilmiş elektron imza vasitəsilə Vergilər Nazirliyinin rəsmi internet səhifəsi olan İnternet Vergi İdarəsinə (www.e-taxes.gov.az) daxil olaraq hazırlayacaq. Elektron vergi hesab-fakturasının tərtib edilməsi, ləğv edilməsi, dəqiqləşdirilməsi, əvəzləşdirilən elektron vergi hesab-fakturaları barədə məlumatların sistemə daxil edilməsi üzrə əməliyyatların həyata keçirilməsi qaydaları Vergilər Nazirliyinin kollegiyası tərəfindən təsdiq edilmiş inzibati reqlamentə uyğun olaraq müəyyən ediləcək.

Hazırlanmış elektron vergi hesab-fakturasının təsdiq edilərək göndərilməsini satıcı qismində satıcı, ödəniş sənədlərini təsdiq etməyə səlahiyyəti olan digər şəxs (şəxslər) gücləndirilmiş elektron imza vasitəsilə həyata keçirə bilərlər. Elektron vergi hesab-fakturasının təsdiq edilərək göndərilməsinin ödəniş sənədlərini təsdiq etməyə səlahiyyəti olan digər şəxs (şəxslər) tərəfindən həyata keçirilməsinə icazənin verilməsi bu şəxslər tərəfindən İnternet Vergi İdarəsində yaradılmış «Səlahiyyətlərin idarə edilməsi» menyusundan istifadə edilməklə gücləndirilmiş elektron imza vasitəsilə təsdiq olunmasına imkan verəcəkdir.

Nazirlər Kabineti «Vergi ödəyicisinə verilmiş elektron vergi hesab-fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları»nda da bəzi dəyişikliklər etmişdir. Bundan sonra alınmış elektron vergi hesab-fakturasına əsasən alıcı öz ƏDV sub-uçot hesabından ƏDV məbləğini satıcının ƏDV sub-uçot hesabına köçürə biləcək. Bu ödənişin aparılması üçün alıcı vergi orqanından alınmış istifadəçi kodu, parol və şifrə, yaxud əldə edilmiş gücləndirilmiş elektron imza vasitəsilə Vergilər Nazirliyinin rəsmi internet səhifəsi olan İnternet Vergi İdarəsinə daxil olaraq ödənişi gücləndirilmiş elektron imza vasitəsilə burada yaradılmış «Köçürmə əməliyyatlarının aparılması» menyusundan istifadə etməklə həyata keçirəcək. ƏDV-nin depozit hesabı vasitəsilə ƏDV üzrə ödənişlərin və əvəzləşmələrin elektron formada aparılması qaydaları Vergilər Nazirliyinin kollegiyası tərəfindən təsdiq olunmuş inzibati reqlamentlə müəyyən ediləcək.

**Rəşad SADIQOV**

# Yeni nəsil nağdsız ödəniş cihazlarının ölkəmizdə tətbiqi imkanları qiymətləndirilir

Əvvəli 2-ci səhifədə

Bu və digər mühüm layihələr əsasında vergi sistemində əldə olunan uğurlar beynəlxalq reytinq agentliklərinin və mötəbər hesabatların Azərbaycan iqtisadiyyatı ilə bağlı ildən-ilə yaxşılaşan qiymətləndirmələrində də öz əksini tapmışdır.

***- Qeyd etdiyiniz kimi, uğurlu islahatlar beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Bununla bağlı nə deyə bilərsiniz?***

- Azərbaycanda keçirilən vergi islahatları Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, eləcə də Avropa İttifaqı və vergi xidmətindəki təcrübə ilə əyani tanış olan bir çox ölkələrin vergi administrasiyaları tərəfindən yüksək qiymətləndirilmişdir. Milli vergi sisteminin əldə etdiyi nailiyyətlər və həyata keçirilən mütərəqqi layihələr, eyni zamanda bu uğurların daha fəal şəkildə təbliği və digər ölkələrin vergi orqanları ilə əməkdaşlığın genişləndirilməsi artıq həmin ölkələrin vergi orqanlarının marağını Azərbaycana cəlb etməkdədir.

Beynəlxalq təşkilatların yekun rəylərinə nümunə olaraq Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan «Doing Business 2014» hesabatında Azərbaycanın mövqeyinin yaxşılaşmasını göstərmək olar. Ölkəmizdə vergi inzibatçılığının sadələşməsinin və həyata keçirilən islahatların nəticəsi ilə əlaqədar bu hesabatda «Biznesə başlama» göstəricisi üzrə ölkəmizin mövqeyi 6 pillə yüksəlmiş, Azərbaycan ilk onluğa daxil olmuşdur. Bu, 2012-ci ildən kommersiya hüquqi şəxslərin «onlayn» qeydiyyatına başlanılması sayəsində mümkün olmuşdur. Hesabatda «Vergi ödənişi asanlığı» (Paying taxes) göstəricisi 2 pillə yaxşılaşmışdır. Məlumat üçün qeyd edim ki, «Doing Business 2014» hesabatında bəyannamələrin doldurulması və vergilərin ödənilməsinə sərf olunan illik vaxt (saat) indikatoru 2007-ci ilə nisbətən 4,7 dəfə azalaraq 1000 saatdan 214 saata, ödəmələr (illik sayı) indikatoru 2 dəfə azalaraq 37-dən 18-ə düşmüşdür.

Bütün bunlar vergi inzibatçılığının sadələşdirilməsi ilə sahibkarlar və iş adamları üçün əlverişli investisiya şəraitinin yaradılması və azad rəqabət mühitinin bərqərar olmasının əyani göstəricisidir.

***- 2013-cü ildə vergi qanunvericiliyinə xeyli dəyişikliklər edilib. Bunlardan bir qismi sənaye parkları və texnoparklara güzəştlərin verilməsi ilə bağlı olub. Qanunvericiliyin təkmilləşdirilməsinə yönəldilmiş tədbirlər 2014-cü ildə də davam edəcəkmi? Yeniliklər hansı sahələri əhatə edəcək?***

- 2013-cü ilin əvvəlindən qüvvəyə minmiş bu dəyişikliklər son bir neçə ildə Vergi Məcəlləsinə edilmiş ən böyük dəyişikliklər paketi idi.

Sənaye parklarına və texnoparklara güzəştlərin verilməsi ilə bağlı qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2014-cü ili «Sənaye ili» elan etmişdir. Bu baxımdan, cari ildə sənayenin inkişafında ciddi irəliləyişlər gözlənilir. Dünya iqtisadiyyatında innovasiyalı iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi hesab edilən, milli iqtisadiyyatda yeni sahələrin formalaşmasında və rəqabətqabiliyyətli olmasında böyük rolu ola biləcək texnoparkların yaradılması iqtisadi sistemdə ciddi dəyişikliklər vəd edir. Bu baxımdan, beynəlxalq təcrübəyə əsaslanaraq, eləcə də orta və uzunmüddətli perspektivdə sənaye parklarının və texnoparkların inkişafını stimullaşdırmaq üçün həmin parklarda fəaliyyət göstərən hüquqi və fiziki şəxslər 7 il müddətinə, parkların idarəedici təşkilat və operatorları isə müddətsiz vergilərdən azad edilmişlər.

Bütövlükdə, ötənilki dəyişikliklərin nəticələrinin təhlili onu deməyə əsas verir ki, dəyişikliklər vergi inzibatçılığının təkmilləşdirilməsi ilə yanaşı, büdcə daxilolmalarının artmasına, vergi ödəyicilərinin hüquqlarının daha əhatəli müdafiəsinə və vergi nəzarətinin səmərəliliyinin artırılmasına öz müsbət təsirini göstərməkdədir.

Vergi güzəştlərinin verilməsi ilə bağlı son dövrlərdə bir sıra qanunlar qəbul edilmişdir. Ötən ilin sentyabr ayından aztəminatlı əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə əməkhaqqından tutulan gəlir vergisi üzrə güzəştin (136 manat) verilməsi üçün müəyyən olunmuş hədd 200 manatdan 250 manata qaldırılmışdır.

1 yanvar 2014-cü il tarixdən kənd təsərrüfatı məhsullarının istehsalçılarına müddətli vergi güzəştlərinin (torpaq vergisi istisna olunmaqla) verilməsi daha 5 il müddətinə, əhalinin əmanətləri üzrə faizlərin gəlir vergisindən azad olunması isə daha 1 il müddətinə uzadılmışdır.

Ölkədə fəaliyyət göstərən uşaq bağçalarının və körpələr evlərinin mənfəət vergisindən və sadələşdirilmiş vergidən 10 il müddətinə azad olunmasını nəzərdə tutan qanun 1 yanvar 2014-cü il tarixdən qüvvəyə minmişdir.

Bu imtiyazlar müvafiq olaraq kənd təsərrüfatının inkişafı, əhalinin sərbəst vəsaitlərinin banklara cəlb olunmasının stimullaşdırılması və sosial xidmət sahələrinin inkişafı üçün əlverişli vergi mühitinin yaradılmasına öz müsbət təsirini göstərməlidir.

Əlbəttə, bütün bunların nəticələrinin qiymətləndirilməsi hələlik tezdir, lakin bir məsələni xüsusi qeyd etmək istərdim ki, güzəştlər verilərkən konkret sahələrin inkişafı məqsədilə onların müddətli və ünvanlı olmasına önəm verilir. Mütəmadi olaraq tətbiq edilən güzəşt və azadolmaların səmərəliliyi araşdırılır və müvafiq təhlillər aparılır.

Cari ildə qanunvericiliyin təkmilləşdirilməsinin davam etdirilməsinə gəldikdə, qeyd edim ki, Vergilər Nazirliyi müntəzəm olaraq vergi qanunvericiliyinin monitorinqini aparır. Zərurət yarandığı zaman Məcəlləyə dəyişikliklər edilməsi barədə təkliflər hazırlanır. Bununla yanaşı, nazirlik tərəfindən müxtəlif məsələlərlə bağlı xarici ölkələrin qanunvericilik təcrübəsi öyrənilir və məqsədəuyğun hesab edildikdə, ölkəmizdə tətbiqi məqsədilə Məcəlləyə dəyişikliklər layihəsi hazırlanır.

Nəzərə almaq lazımdır ki, Vergilər Nazirliyi vergi qanunvericiliyinin Avropa İttifaqının müvafiq sahəyə dair direktivlərinə uyğunlaşdırılmasına çalışır və bu proses davamlı xarakter daşıyır.

***- Vergi ödəyicilərinə xidmətin keyfiyyətinin yüksəldilməsi və əhatə dairəsinin genişləndirilməsi sahəsində hansı işlər görülmüşdür?***

- Vergi sahəsində məlumatlandırma, maarifləndirmə və təbliğat işini genişləndirmək məqsədilə «Vergi dostları» layihəsinin həyata keçirilməsi davam etdirilmişdir. Ötən il «Vergi dostları» şəbəkəsinə 1405 nəfər cəlb olunmuşdur. Bu günə kimi yerli vergi orqanlarının əhatə dairəsinə daxil olan 53 rayon üzrə ümumtəhsil məktəblərinin müəllimlərindən 1541 nəfər «Vergi dostları» şəbəkəsinə qoşulmuşdur. Məqsəd vergilər barədə məlumatları ölkəmizin bütün ərazisinə, xüsusilə respublikanın şəhər və rayon mərkəzlərinin əhatəsindən kənarda olan kənd və qəsəbələrə, hər bir ailəyə çatdırmaq, bununla da vətəndaşlarda vergi mədəniyyətini formalaşdırmaq, o cümlədən bu sahəyə ictimaiyyətin geniş təbəqələrini cəlb etməkdir.

Vergi ödəyicilərinə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi və yüksək səviyyədə təşkili məqsədilə 2013-cü ildə Bakıda istifadəyə verilmiş Vergi ödəyicilərinə xidmət mərkəzi ən müasir standartlara cavab verir. Vergilərin könüllü ödənilməsi sisteminin və sahibkarlığın inkişafı məqsədilə Vergilər Nazirliyi tərəfindən indiyədək yaradılmış xidmət mərkəzlərinin sayı artıq 40-a çatmışdır.

Ötən il «Vergi ödəyicilərinə xidmətlərin vahid standartları» təsdiq olunmuşdur. Vergi ödəyicilərinə göstərilən 124 adda xidmətin 55-nin vergi ödəyicilərinə xidmət mərkəzləri tərəfindən həyata keçirilməsi təmin edilmişdir.

Vergilər Nazirliyi vergi təbliğatının və ödəyicilərə xidmət işinin ünvanlı şəkildə aparılmasına xüsusi diqqət yetirir. Vergi orqanları tərəfindən göstərilən xidmətlərin insanlar üçün rahat və əlçatan olmasının təmin edilməsi, xidmət tədbirlərinin vergi orqanlarının nəzarət dairəsinə aid olan bütün rayonları, qəsəbə və kəndləri əhatə etməsi məqsədilə xidmət mərkəzlərinə xüsusi nəqliyyat vasitələri ayrılmışdır. Bu avtomobillər vasitəsilə bilavasitə vergi ödəyicilərinin yerləşdiyi ərazilərdə və onlara münasib yerlərdə səyyar xidmətlər göstəriləcək, qeydiyyat və uçot sahəsində zəruri köməkliklər olunacaqdır. Xüsusi nəqliyyat vasitələrindən Vergilər Nazirliyinin təmsil olunduğu sərgilərdə, vergi ödəyiciləri və bələdiyyələrlə keçirilən müxtəlif görüşlərdə, «Vergi xidməti günləri»ndə, şagird və tələbələrlə keçirilən müxtəlif tədbirlərdə və görüşlərdə də istifadə ediləcəkdir.

***- Cari ildən bələdiyyələrdə avtomatlaşdırılmış informasiya sisteminin tətbiqi ilə bağlı xüsusi pilot layihənin həyata keçirilməsinə başlanılmışdır. Bu layihə barədə bir qədər ətraflı məlumat verməyinizi xahiş edirik.***

- «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında dövlət və yerli özünüidarəetmə orqanlarında İKT-nin tətbiqi və elektron xidmətlərin genişləndirilməsi prioritet vəzifələr sırasındadır.

Bələdiyyələrə vergi qanunvericiliyinə riayət edilməsi sahəsində metodiki rəhbərliyi həyata keçirən dövlət orqanı olaraq Vergilər Nazirliyi «Bələdiyyələrin vergi informasiya sistemi» layihəsini həyata keçirməyə başlamışdır. Bununla əlaqədar ötən ilin sonunda yerli vergilərin hesablanması və ödənilməsi, yerli vergilərin ödəyiciləri olan sahibkarlıq subyektlərinin uçotu ilə bağlı metodiki vəsaitlər təsdiq olunmuşdur. Bu sənədlər layihənin həyata keçirilməsi üçün normativ baza rolunu oynayır.

Yeni sistem bələdiyyələrdə yerli vergi və ödənişlərin, bələdiyyə vergilərinin ödəyicilərinin və onların vergitutma obyektlərinin avtomatlaşdırılmış uçotunun təşkilini, bələdiyyələr üçün «onlayn kargüzarlığın» istifadəyə verilməsini, operativ məlumat mübadiləsi aparılmasını və təhlükəsizliyi yüksək səviyyədə təmin olunan məlumat bazasının yaradılmasını nəzərdə tutur.

Hazırda yerli vergi və ödənişlərin bələdiyyələrə elektron formada bəyan edilməsi, «onlayn kargüzarlıq» sisteminin qurulması məqsədilə «İnternet Bələdiyyə İdarəsi» yaradılmaqdadır. İlkin olaraq bir neçə bələdiyyədə pilot layihənin həyata keçirilməsinə başlanmışdır.

***- Sonda vergi sisteminin perspektiv inkişaf istiqamətləri barədə məlumat verməyinizi xahiş edirik.***

- Məlum olduğu kimi, hər ilin əvvəlində, vergi orqanı əməkdaşlarının peşə bayramı ərəfəsində «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» adı altında keçirilən ənənəvi vergi forumlarında ölkəmizin vergi sistemindəki vəziyyət və onun perspektiv inkişaf istiqamətləri aidiyyəti dövlət qurumlarının, Milli Məclisin, beynəlxalq təşkilatların, QHT-lərin, sahibkarların ictimai birliklərinin nümayəndələrinin, ekspertlərin və iş adamlarının iştirakı ilə geniş müzakirə olunur. Bu il fevral ayının 6-7-də keçirilmiş III Vergi Forumunda çıxış edən vergilər naziri cənab Fazil Məmmədov ölkəmizin vergi sisteminin perspektiv inkişaf istiqamətləri ilə bağlı nazirliyin mövqeyini bəyan etmişdir.

Vergi sistemində əldə olunmuş nailiyyətlərə əsaslanaraq yaxın gələcəkdə vergi qanunvericiliyinin daha da təkmilləşdirilməsi, vergi inzibatçılığının səmərəliliyinin artırılması, vergi nəzarətinin gücləndirilməsi və vergi hüquqpozmaları ilə mübarizə qarşımızda duran başlıca vəzifələrdəndir.

«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasına uyğun olaraq, Azərbaycanın vergi xidmətinin qarşısında müasir inkişaf tələblərinə cavab verə biləcək vergi sisteminin formalaşdırılması, səmərəli vergi siyasətinin həyata keçirilməsi kimi mühüm vəzifələr durur. Konsepsiyaya əsasən, iqtisadi sistemin rəqabət qabiliyyətinin daha da artırılması məqsədi ilə kompleks tədbirlər həyata keçiriləcək, vergi dərəcələri optimallaşdırılacaqdır ki, bunlar da sahibkarlıq fəaliyyəti üçün əlverişli mühitin yaradılmasına kömək edəcəkdir.

Ölkə iqtisadiyyatının inkişaf strategiyasına uyğun olaraq optimal vergi yükünün təmin olunması, vergi sisteminin inkişafı istiqamətində kompleks tədbirlərin davam etdirilməsi ilə iqtisadi subyektlərin aktivliyinin artması nəticəsində maliyyə imkanlarının genişlənməsi büdcə daxilolmalarının artımına da müsbət təsir göstərəcəkdir.

İnkişaf Konsepsiyasının icrası məqsədilə vergi sisteminin qarşısında müəyyən edilən strateji vəzifələrin yerinə yetirilməsi məqsədilə strateji plan və strategiya təsdiqlənmişdir. Strateji plana əsasən, növbəti 7 il ərzində Azərbaycan qanunvericiliyinin Avropa İttifaqı qanunvericiliyinə uyğunlaşdırılması, aktiv vergi siyasətinə keçidin təmin edilməsi, nağdsız ödənişlərin stimullaşdırılması, e-kommersiyaya vergi nəzarətinin təşkili, ümumi bəyannamə sisteminə keçid və digər mühüm layihələrin icrası nəzərdə tutulur.

*Yaxın gələcəkdə vergi qanunvericiliyinin daha da təkmilləşdirilməsi, vergi inzibatçılığının səmərəliliyinin artırılması, vergi nəzarətinin gücləndirilməsi qarşımızda duran başlıca vəzifələrdəndir*



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Vergi hesabatlılığı və ona dair tələblər

Qanunvericiliklə müəyyən olunmuş vergilərin düzgün hesablanmasına, tam və vaxtında dövlət xəzinəsinə ödənilməsinə dövlət nəzarətinin həyata keçirilməsi üçün vergi ödəyicilərinin vergi orqanlarına təqdim etdikləri hesabatların çox böyük rolu vardır. Ümumiyyətlə, istənilən cəmiyyətdə gedən sosial-iqtisadi proseslər haqqında məlumatların toplanılmasında və onların əsasında müəyyən təhlillər aparılaraq müvafiq qərarların qəbul edilməsində təsərrüfat subyektlərinin müxtəlif növ hesabatlarından geniş şəkildə istifadə olunur. Eyni zamanda, müəssisələr tərtib etdikləri hesabat məlumatları əsasında öz fəaliyyət planlarının icrasına nəzarəti həyata keçirir və aparılan təhlillərin nəticələri əsasında strateji inkişaf planlarını müəyyən edirlər. Gələcək fəaliyyət üzrə hazırlanan strateji planın obyektivliyi və dolğunluğu tərtib edilən hesabat məlumatlarının keyfiyyətindən çox asılıdır.

*Vergi hesabatının digər hesabat növlərindən əsas fərqi ondan ibarətdir ki, o, vergi qanunvericiliyi ilə müəyyən edilmiş vergitutma obyektləri olan təsərrüfat subyektləri tərəfindən tərtib olunur*

Təsərrüfat subyektlərinin hesabatları, adətən, üç qrupa bölünür: maliyyə, vergi və statistik hesabatlar. Qeyd etmək lazımdır ki, beynəlxalq təcrübədə qəbul olunduğu kimi, istənilən hesabat, növündən asılı olmayaraq, aşağıdakı tələblərə cavab verməlidir:

- qərar qəbul edilməsində istifadəçilər üçün əhəmiyyətliliyi;
- hesabatda göstərilən məlumatların istifadəçilər üçün aydın olması;
- qeyri-müəyyən situasiyalara dair hesabatda göstərilən məlumatların reallığa daha yaxın olması;
- hesabat məlumatlarının neytrallığı;
- hesabat məlumatlarının tam və düzgün olması.

Hesabatların qeyd olunan tələblərə cavab verməsinin təmin edilməsi üçün müvafiq normativ hüquqi sənədlərlə onların hazırlanması və təqdim olunması qaydaları müəyyənləşdirilir. Vergi hesabatının digər hesabat növlərindən əsas fərqi ondan ibarətdir ki, o, vergi qanunvericiliyi ilə müəyyən edilmiş vergitutma obyektləri olan təsərrüfat subyektləri tərəfindən tərtib olunur. Vergi hesabatlarının tərtib olunması və vergi orqanına təqdim edilməsi qaydası Vergi Məcəlləsi ilə müəyyən olunmuşdur. Vergitutma məqsədləri üçün vergi hesabatı vergi bəyannaməsindən ibarətdir.

Vergi Məcəlləsinə və ona müvafiq olaraq qəbul edilmiş qanunlara uyğun olaraq, vergi hesabatını verməyə borclu olan vergi ödəyiciləri vergi hesabatını bu Məcəllədə göstərilən müddətlərdə Vergilər Nazirliyinin müəyyənləşdirdiyi formada və yerdə vergi orqanına verməlidirlər. Hesabatlar vergi orqanına daxil olduğu gündən 30 gün müddətində Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada kameral yoxlanılır. Vergi orqanı tərəfindən vergi hesabatının onun barəsində kameral vergi yoxlaması aparıldıqdan sonra və ya hər hansı digər hərəkətlərin həyata keçirilməsi ilə qəbul edilməsinin şərtləndirilməsi yolverilməzdir və bu, qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Eyni zamanda, Vergi Məcəlləsində vergi hesabatlarının rəsmiləşdirilməsinə və vergi orqanına təqdim olunmasına dair müəyyən tələblər də qoyulmuşdur. Bunlardan biri düzgün tərtib edilməyən hesabatların qəbul olunmaması hallarının müəyyən edilməsindən ibarətdir. Vergi Məcəlləsinə əsasən, vergi orqanı tərəfindən vergi hesabatı yalnız aşağıdakı hallardan biri olduqda qəbul edilmir:

- vergi ödəyicisinin eyniləşdirmə nömrəsi göstərilmədikdə və ya səhv göstərildikdə;
- vergi dövrü əks olunmadıqda;
- vergi ödəyicisi olan hüquqi şəxs tərəfindən kağız daşıyıcı vasitəsi ilə verilən vergi hesabatı imzalanmadıqda və möhürlə təsdiq olunmadıqda;
- vergi ödəyicisi olan fiziki şəxs tərəfindən vergi hesabatı imzalanmadıqda;
- vergi ödəyicisi olan hüquqi və fiziki şəxslər tərəfindən elektron sənəd formasında göndərilən vergi hesabatı müvafiq qanunvericiliyin və ya qaydaların tələblərinə uyğun olmadıqda.

Vergi hesabatı yuxarıda göstərilən hallarda qəbul edilmədikdə, hesabatın vergi orqanına daxil olduğu gündən 3 iş günü ərzində vergi ödəyicisinə bu barədə, habelə aşkar edilmiş dəqiqsizlikləraradan qaldırılaraq vergi orqanına təqdim edilməsi barədə bildiriş göndərilir.

Vergi hesabatlarının dolğunluğunun təmin olunması məqsədilə Vergi Məcəlləsində nəzərdə tutulmuşdur ki, vergi hesabatlarında verilmiş məlumatlar ilkin uçot sənədləri üzrə məlumatlara uyğun olmadığı hallarda, vergi ödəyiciləri tərəfindən həmin hesabat dövrü üçün dəqiqləşdirilmiş hesabat təqdim edilməlidir. Dəqiqləşdirilmiş hesabat üzrə büdcəyə ödənilməli vergi məbləği əvvəl təqdim edilmiş hesabat üzrə büdcəyə ödənilməli vergi məbləğindən çox olduqda əlavə hesablanmış vergi məbləği faizlərlə birlikdə büdcəyə ödənilir, az olduqda isə hesablanmış vergi və faiz məbləğləri azaldılır. Bu zaman nəzərə alınmalıdır ki, vergi ödəyicisi tərəfindən dəqiqləşdirilmiş və ya vaxtında təqdim edilməmiş hesabatlar vergi ödəyicisində səyyar vergi yoxlamasının başlandığı günədək təqdim oluna bilər.

Yuxarıda göstərilənlərlə yanaşı, vergi hesabatlarının vaxtında tərtib edilib vergi orqanlarına təqdim olunmasında və vergi hesabatlarında göstərilən məlumatların düzgünlüyünün təmin edilməsində vergi ödəyicilərinin məsuliyyətinin artırılması məqsədilə Vergi Məcəlləsində maliyyə sanksiyalarının tətbiqi ilə bağlı maddələr nəzərdə tutulmuşdur. Belə ki, Vergi Məcəlləsinə əsasən, vergi hesabatını müəyyən olunmuş müddətdə təqdim etməyən vergi ödəyicisinə 40 manat məbləğində, verginin hesabatda göstərilməli olan məbləğinə nisbətən azaldılmasına görə isə azaldılmış vergi məbləğinin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.



## Hüquq məsləhətxanamız

Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Gücləndirilmiş elektron imza

***Elektron vergi hesab-fakturalarının hazırlanıb təsdiq edilməsi üçün gücləndirilmiş elektron imzadan istifadə zəruridirmi?***

Vergi ödəyiciləri tərəfindən elektron vergi hesab-fakturalarından istifadə edilməsi qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 28 sentyabr tarixli 156 nömrəli qərarı ilə təsdiq edilmiş «Elektron vergi hesab-fakturalarının tətbiqi, uçotu və istifadə Qaydaları» (Qaydalar) ilə müəyyən edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 28 sentyabr tarixli 156 nömrəli Qərarı ilə təsdiq edilmiş «Elektron vergi hesab-fakturalarının tətbiqi, uçotu və istifadə Qaydaları»nda dəyişikliklər edilməsi barədə» 2014-cü il 19 mart tarixli 84 nömrəli Qərarı ilə «Elektron vergi hesab-fakturalarının tətbiqi, uçotu və istifadə Qaydaları»nda dəyişikliklər edilmişdir. Həmin dəyişikliklər çərçivəsində Qaydalara əlavə edilmiş 4-1-ci bəndə əsasən, satıcı elektron vergi hesab-fakturasını vergi orqanından alınmış istifadəçi kodu, parol və şifrə, yaxud gücləndirilmiş elektron imza vasitəsilə Vergilər Nazirliyinin rəsmi internet səhifəsi olan İnternet Vergi İdarəsinə (www.e-taxes.gov.az) daxil olaraq hazırlayır.

Bununla yanaşı, Qaydalara əlavə edilmiş 4-2-ci bəndə əsasən, bu Qaydaların 4-1-ci bəndinə uyğun olaraq hazırlanmış elektron vergi hesab-fakturasının təsdiq edilərək göndərilməsini satıcı qismində aşağıdakı şəxslər gücləndirilmiş elektron imza vasitəsilə həyata keçirə bilərlər:

4-2.1. vergi ödəyicisi olan fiziki şəxsin özü və ya hüquqi şəxsin rəhbəri;

4-2.2. bu Qaydaların 4-2.1-ci yarımbəndində qeyd edilmiş şəxsin özü və ödəniş sənədlərini təsdiq etməyə səlahiyyəti olan digər şəxs (şəxslər).

Göstərilənlərlə yanaşı, Qaydalara əlavə edilmiş 4-3-cü bəndə uyğun olaraq elektron vergi hesab-fakturasının bu Qaydaların 4-2.2-ci yarımbəndinə əsasən təsdiq edilərək göndərilməsinin ödəniş sənədlərini təsdiq etməyə səlahiyyəti olan digər şəxs (şəxslər) tərəfindən həyata keçirilməsinə icazənin verilməsi bu Qaydaların 4-2.1-ci yarımbəndində qeyd edilmiş şəxslər tərəfindən İnternet Vergi İdarəsində yaradılmış «Səlahiyyətlərin idarə edilməsi» menyusundan istifadə edilməklə, gücləndirilmiş elektron imza vasitəsilə təsdiq edilir.

Beləliklə, satıcı elektron vergi hesab-fakturasını Vergilər Nazirliyinin rəsmi internet səhifəsi olan İnternet Vergi İdarəsində hazırlayıb təsdiq etmək üçün gücləndirilmiş elektron imzadan istifadə etməlidir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Azərbaycan Mərkəzi Bankının sərəncamında olan rəsmi valyuta ehtiyatların həcmi 2014-cü ilin aprelin 1-nə **14 mlrd. 715,7 mln. ABŞ dolları** təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən **2 mlrd. 383,1 mln. dollar** və ya **19,3%** çoxdur.
- Azərbaycanda İxracın və İnvestisiyaların Təşfiqi Fondundan verilən məlumata görə, ötən il Azərbaycan investorları Rusiya Federasiyasına **600 mln. ABŞ dolları** dəyərində sərmayə yatırıblar.
- Asiya İnkişaf Bankının proqnozlarına görə, 2014-cü ildə Azərbaycanda ÜDM-in artımı **5%** təşkil edəcək.
- 2014-cü ilin ilk iki ayı ərzində ölkə əhalisinin hər nəfərinin gəlirləri **2,8%** artaraq **601.8 manata** çatmışdır. Gəlirlərin **72,%-i** son istehlaka, **8,9%-i** vergilər, sosial sığorta və könüllü üzvlük haqlarının ödənilməsinə, **16,8%-i** isə əmanətlərin və kapitalın artırılmasına sərf edilmişdir.

# İKT-nin dinamik inkişafına təkan verəcək yeni strategiya

*Azərbaycanda neftdən sonrakı inkişafın məhz informasiya-kommunikasiya sektoru hesabına təmin edilməsi, ümumi daxili məhsulda elmtutumlu texnologiyaların xüsusi çəkisinin artırılması istiqamətində həyata keçirilən islahatlar müasir dövrün qlobal çağırışlarına uyğun şəkildə davam etdirilir.*

Ölkə başçısının 2014-cü il 2 aprel tarixli sərəncamı ilə «Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya»nın təsdiq edilməsi iqtisadiyyatın davamlı və sabit inkişafı baxımından informasiya-kommunikasiya texnologiyaları (İKT) sektorunun roluna yüksək önəm verildiyini bir daha təsdiqləyir.




Xatırlatmaq lazımdır ki, 2020-ci ilədək ümumi daxili məhsul istehsalının 2 dəfəyədək artırılması hökumətin qarşısında mühüm hədəf kimi müəyyənləşdirilmiş, bu məqsədin reallaşdırılmasında İKT sektorunun rolu və potensialı yüksək dəyərləndirilmişdir. «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası respublikanın uzunmüddətli inkişafını təmin edəcək strateji əhəmiyyətli sənəd olaraq informasiyalı cəmiyyətinin qurulması üçün informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsini önə çəkir. Konsepsiyaya əsasən, 2020-ci ilədək İKT və rabitə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi və inkişaf etdirilməsi istiqamətində etibarlı təhlükəsizlik sisteminin yaradılması, milli standartların formalaşdırılması, ölkə üzrə tam rəqəmsal yayımın tətbiq olunması və analoq yayımın dayandırılması, eləcə də «e-dövlət» xidmətlərinin 100% tətbiqi nəzərdə tutulur. Konsepsiyaya əsasən, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin qarşısında 2020-ci ilə qədər İKT sektoru üzrə gəlirlərin həcmini illik 8-9 milyard dollarıdək artırmaq vəzifəsi qoyulmuşdur.

«İKT ili» elan edilmiş 2013-cü ildə bu istiqamətdə bir sıra mühüm nəticələr əldə edilmiş, Azərbaycanın ilk suni peyki orbitə buraxılmış, elektron hökumətə keçid prosesi sürətlənmiş, genişzolaqlı internet şəbəkəsinin inkişafı və digər istiqamətlərlə mühüm nəticələrə nail olunmuşdur. «Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya» isə bu sahədə indiyə qədər həyata keçirilmiş islahatların keyfiyyətcə yeni mərhələdə uğurla davam etdirilməsi baxımından mühüm əhəmiyyətə malik olan sənəddir. Strategiya «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası» və «Azərbaycan Respublikasında 2013-cü ilin «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilməsi ilə bağlı Tədbirlər Planı»nda nəzərdə tutulmuş hədəflərin reallaşdırılmasına yeni imkanlar açır. Beynəlxalq Telekommunikasiya İttifaqının, Avropa İttifaqının, UNESCO-nun tövsiyələri, «Açıq hökumət təşəbbüsü» nəzərə alınmaqla hazırlanmış Milli Strategiya İKT sahəsinin qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsi üzrə əsas məqsəd və vəzifələri, prioritetləri müəyyənləşdirir.

Sərəncama əsasən, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Milli Strategiyanın həyata keçirilməsi üzrə əlaqələndirici orqan kimi müəyyən edilmişdir. Nazirlər Kabineti isə «Milli Strategiyanın həyata keçirilməsi üzrə 2014-2017-ci illər üçün Dövlət Proqramı»nın layihəsini 4 ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

Sənədin preambula hissəsində vurğulandığı kimi, bu sahədə həyata keçirilən islahatlar nəticəsində respublikamız Dünya İqtisadi Forumunun «The Global Information Technology Report» hesabatında «İKT-yə dəstəkdə hökumətin uğurları» və «Hökumətin gələcək baxışlarında İKT-yə verilən əhəmiyyət» indekslərinə görə dünya üzrə ilk onluqda yer almışdır. Hesabatda Azərbaycan şəbəkə hazırlığı indeksi üzrə 144 ölkə arasında 56-cı yeri tutmuş və MDB ölkələri arasında liderlər qrupunda olmuşdur.

Hazırda İKT sektorunun ölkə iqtisadiyyatının aparıcı və dinamik inkişaf edən sahələrindən birinə çevrildiyi danılmaz reallıqdır. 2003-2013-cü illər ərzində sektorun gəlirləri ildə təxminən 20-25% artaraq 1,9 milyard ABŞ dollarını ötmüş, ümumi daxili məhsulda payı 1,7%-ə, qeyri-neft ÜDM-də isə 3,3%-ə yüksəlmişdir. Sektora investisiya qoyuluşu 2,5 milyard ABŞ dolları təşkil etmiş, bunun 28%-i dövlət, 72%-i isə yerli biznes strukturlarının payına düşmüşdür. Özəl sektorun bu sahədə payı 2003-cü ildəki 67,3%-dən 80%-ə yüksəlmişdir. 2013-cü ilin yekunlarına əsasən, Azərbaycan əhalisinin 70%-i internet (o cümlədən 50%-i genişzolaqlı internet) istifadəçisidir. 2004-cü illə müqayisədə 1 Mbit/s sürətli internetə qoşulmanın qiymətinin 1200 manatdan 10 manata enməsi də bu sahədə qazanılan uğurların miqyası barədə dolğun təsəvvür yaradır. Genişzolaqlı xidmətlərə qoşulmanın ölkə üzrə orta qiyməti orta aylıq əməkhaqqının 3%-ni təşkil edir ki, bu da Beynəlxalq Kommunikasiya İttifaqının 2015-ci il üçün müəyyən etdiyi hədəfin reallaşdırılması deməkdir. Dünyanın bir çox ölkələri hələ «3G» texnologiyasına tam keçmədiyi halda, Azərbaycan ən son mobil texnologiyanın - «4G»nin tətbiqinə başlamışdır.

«Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya» respublikada intellektual potensialın gücləndirilməsi, biznesin irəliləməsi, korrupsiya ilə mübarizənin artırılması, yoxsulluq və işsizliyin səviyyəsinin azaldılması, idarəetmədə şəffaflığın təkmilləşdirilməsi baxımından İKT-nin dinamik inkişafı zərurətini ön plana çəkir. Strategiyaya əsasən, 2020-ci ilədək sektorun həcminin 4-4,5 dəfə genişləndirilməsi və iqtisadi potensialının gücləndirilməsi, innovativ, rəqabətqabiliyyətli və ixracyönlü İKT potensialının formalaşdırılması nəzərdə tutulur. Ortamüddətli perspektivdə ölkənin regional informasiya xidmətləri mərkəzinə çevrilməsi; kosmik sənayenin inkişaf etdirilməsi və peyk texnologiyalarının geniş tətbiqi; vətəndaşların informasiya texnologiyaları sahəsində bilik və bacarıqlarının yüksəldilməsi; «elektron hökumət»in inkişafı və dövlət idarəçiliyinin bütün səviyyələrində elektron xidmətlərdən istifadə edilməsi; mövcud İKT infrastrukturunun və bu sahənin istifadəçilərinin informasiya təhlükəsizliyinin təmini; ölkənin qlobal informasiya məkanına sıx inteqrasiyası əsas hədəflər sırasındadır.

Strategiyada mühüm prioritetlərdən biri olaraq internet iqtisadiyyatının inkişaf etdirilməsi də önə çəkilmiş, onun vəd etdiyi iqtisadi dividendlərə toxunulmuşdur. Sənəddə göstərilir ki, internet iqtisadiyyatının inkişafı yeni istifadə və iştirak mühitlərinin yaranmasına, məhsuldarlığın artırılmasına, strateji üstünlüyün əldə olunmasına, tərəfdaşlarla münasibətlərin möhkəmləndirilməsinə, informasiya resurslarından optimal istifadəyə və bütövlükdə cəmiyyətin rifahının yaxşılaşdırılmasına şərait yaradacaqdır.

**Samir MUSTAFAYEV**

# İşçilərin hüquqlarının qorunmasına diqqət artırılır

*Əmək qanunvericiliyinin təkmilləşdirilməsi, işçilər üçün təhlükəsiz və sağlam əmək mühitinin yaradılması, işçi əməyindən sui-istifadə hallarının aradan qaldırılması, qeyri-leqal məşğulluqla mübarizə sahəsində ölkə miqyasında ardıcıl tədbirlər həyata keçirilir, əmək qanunvericiliyinin pozulmasına səbəb olan şəxslər cəzalandırılır. Görülən tədbirlərin əsas məqsədi əmək hüquqlarının təmin olunması, əməyin mühafizəsi ilə bağlı məsuliyyət hissinin artırılmasıdır.*

Bu ilin iki ayı ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (DƏMX) tərəfindən ayrı-ayrı müəssisələrdə 2060 halda əmək qanunvericiliyinin pozulması faktı aşkar olunub və hüquq pozuntuları ilə bağlı İnzibati Xətalar Məcəlləsinin müvafiq bəndlərinə uyğun olaraq, işəgötürənlərə ümumilikdə 770850 manat məbləğində cərimə tətbiq edilib. Bu rəqəmlər ötən ilin ilk iki ayına dair göstəricilərlə müqayisədə, müvafiq olaraq, təxminən 11, 5 dəfə və 17 dəfə çoxdur. Əmək qanunvericiliyinin pozulması işçilərlə əmək müqaviləsinin bağlanmasından yayınma hallarında da özünü göstərir ki, bu problemin də yaxın vaxtlarda həll olunması istiqamətində iş aparılır.

Əmək Məcəlləsində dəyişikliklər edilməsi ilə bağlı qanunun tətbiqi barədə ölkə başçısının fərmanına uyğun olaraq, əmək münasibətləri əmək müqaviləsi bağlandığı andan deyil, elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra yaranacaq. Bundan sonra təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq bütün işəgötürənlər əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi ilə bağlı elektron informasiya sistemində əmək müqaviləsi bildirişini qeydiyyatdan keçirməli olacaqlar. Artıq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi və qeydiyyata alınması prosedurlarını əks etdirən müvafiq qaydalar hazırlanıb və təsdiq üçün hökumətə təqdim edilib. Nazirlikdən verilən məlumata görə, qaydalar təsdiq edildikdən sonra elektron informasiya sisteminin «elektron hökumət» portalı üzərindən tətbiqinə yaxın vaxtlarda başlanacaqdır. Əmək müqaviləsi bildirişlərinin sistemə daxil edilərək qeydiyyata alınması üçün ƏƏSMN tərəfindən elektron informasiya sisteminin proqram təminatının hazırlanması işləri də artıq başa çatdırılıb. Yeni proqram təminatı işəgötürənlərin qeyd olunan bildirişləri e-imza vasitəsilə elektron informasiya sisteminə daxil edə bilmələri və qeydiyyatdan keçirmələrinin asan şəkildə yerinə yetirilməsinə imkan verəcək.



Eyni zamanda, elektron informasiya sisteminə daxil ediləcək əmək müqaviləsi bildirişlərində işçilərin fərdi identifikasiya kodu öz əksini tapacaq. Bu isə işçilər barədə məlumatların həm əmək hüquqlarına əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqan, həm də işəgötürənlər tərəfindən avtomatik rejimdə əldə edilməsinə imkan verəcək.

Nazirlikdən bildirilir ki, elektron informasiya sisteminin işə salınması işçi hüquqlarının təminatı istiqamətində mühüm addım olmaqla, əmək münasibətlərinin formal olaraq rəsmiləşdirilməsi, yəni bağlanmış əmək müqaviləsinin bir nüsxəsinin işçiyə verilməməsi və yalnız işəgötürəndə olması kimi hallara son qoyacaq. Elektron informasiya sistemi işçilərin əmək hüquqlarının, eyni zamanda gələcək sosial təminat hüququnun qorunmasında vacib məlumat mənbəyi rolunu oynayacaq. Nəticədə işçilərdən iş yerləri, əməkhaqları və s. barədə arayışlar istənilməyəcək, bu barədə müvafiq məlumatları elektron informasiya sistemi vasitəsilə əldə etmək mümkün olacaqdır.

Yuxarıda qeyd etdiklərimizdən əlavə, iş yerlərində işçilərin həyatının təhlükəsizliyi və sağlamlığı da diqqətdə saxlanılır, onların sağlamlığına mənfi təsir edə biləcək amillərə qarşı tədbirlər həyata keçirilir. ƏƏSMN tərəfindən iş yerlərinin əməyin mühafizəsi normalarına uyğunluğunun müasir üsullarla ekspertizası üçün xüsusi laboratoriyaların yaradılmasına başlanılıb. İlkin mərhələdə ƏƏSMN-in sifarişi əsasında Bakı şəhərində nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin mərkəzi laboratoriyasının tikintisinə hazırlıq görülür. Sonrakı mərhələdə digər bölgələrdə də bu tipli laboratoriyalar yaradılacaqdır. Hazırda laboratoriyalar üçün xarici ölkələrdən müasir texniki avadanlıqlar gətirilib. Laboratoriyalarda istehsal sahələrində əmək şəraitinin ekspertizası həyata keçiriləcək, insan sağlamlığına mənfi təsir göstərən zərərli fiziki-kimyəvi-bioloji amillər, toksiki maddələr tədqiq ediləcək.

**AYTƏN**

# Səyyar xidmətlər vətəndaşları razı salır

«ASAN xidmət» mərkəzlərinin fəaliyyətə başlaması ölkə əhalisinə rahat və əlavə vəsait ödəmək ehtiyacı duymadan dövlət qurumlarının xidmətlərindən istifadə etmək imkanı yaratdı. Respublikanın müxtəlif bölgələrində fəaliyyət göstərən bu mərkəzlər vətəndaşların inam və etibarını qazanmışdır.

«ASAN xidmət» şəbəkəsinin ölkəmizin bütün ərazisini əhatə etməsi məqsədilə səyyar xidmət həyata keçirilir. Ölkə başçısının tapşırığına əsasən, avtomobillər və iritutumlu avtobuslar vasitəsilə reallaşan bu xidmət vətəndaşlara dövlət xidmətlərinin daha rahat, yeni və müasir üsullarla təqdimi, vətəndaşlara əlverişli şəraitin yaradılması, eləcə də vətəndaş məmnunluğuna nail olunması baxımından müstəsna əhəmiyyət daşıyır.

Hazırda pilot layihə çərçivəsində Bakı şəhərinin Nərimanov rayonu üzrə səyyar xidmətlər həyata keçirilir. Bu xidmət qanunla nəzərdə tutulmuş qaydada əlavə ödəniş aparılmaqla hər hansı şəxsin iş və ya yaşayış yerini, habelə olduğu yeri tərk etmədən xidmətlərdən yararlanmasını nəzərdə tutur. Xidmətin həyata keçirilməsi üçün tələb edilən sənədlər və xidmətin nəticəsi olaraq vətəndaşlara verilməli olan sənədlər onların yaşayış və ya iş yerlərində, habelə olduqları yerdə təhvil götürülə və təhvil verilə bilər. Xidmətin sifarişi 108 nömrəli «Çağrı mərkəzi» vasitəsi ilə həyata keçirilir. Xidmətin haqqı isə ikitərəfli xidmət üçün (sənədlərin qəbulu və hazır sənədin çatdırılması) 90 manat, birtərəfli xidmət (hazır sənədin çatdırılması) üçün 50 manat müəyyənləşib. Qeyd edilən sifarişin xidmət haqqına dövlət rüsumları, cərimələr və normativ hüquqi aktlarla müəyyən edilən xidmət haqları daxil deyil. Sosial həmrəyliyin təmin edilməsi məqsədi ilə kənardan qulluğa və yardıma ehtiyacı olan əlillər və sağlamlıq imkanları məhdud şəxslər üçün əlavə səyyar xidmət haqqı ödənilmədən həyata keçirilir.

Vətəndaşın səyyar xidmətlə bağlı müraciəti mərkəzləşdirilmiş qaydada müraciət edilən gün ən yaxın «ASAN xidmət» mərkəzinin səyyar operatorlar qrupuna ötürülür. Səyyar xidmət operatoru bir iş günü ərzində sifarişçi ilə əlaqə saxlayır, onun tələb etdiyi xidmətə müvafiq olaraq hazırlayacağı sənədlərin siyahısını verir və xidmətin həyata keçirilməsi müddəti haqqında razılığa gəlinir. Tələb olunan xidmət üzrə sənəd hazırlanaraq razılaşdırılmış ünvanda sifarişçiyə təqdim edilir.

Avtobuslar vasitəsi ilə notariat fəaliyyəti, şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, torpaq kadastrı məlumatları barədə arayışların verilməsi, əmək pensiyalarının təyin edilməsi, yaşayış evləri üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışların (ilkin qeydiyyat istisna olmaqla) verilməsi, daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına dair dövlət reyestrindən arayışların verilməsi kimi səyyar xidmətlər həyata keçirilir.




Avtomobillər vasitəsilə həyata keçirilən aşağıdakı səyyar xidmətlər ödənişlidir: şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq barədə arayışların verilməsi, torpaq kadastrı məlumatları barədə arayışların verilməsi, daşınmaz əmlakla bağlı əməliyyatların qeydiyyatı, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı.

Ötən ilin iyun ayından şimal və cənub istiqamətləri üzrə 21 dayanacaq nöqtəsində 37 rayon üzrə 58.603 nəfər vətəndaşın müraciətinə səyyar formada baxılmışdır. Bu ilin sonuna qədər isə səyyar xidmət vasitəsi ilə 35 məntəqədə 41 rayonun sakinlərinə müvafiq xidmətlərin göstərilməsi nəzərdə tutulur.

**AYTƏN**

# İqtisadi inkişafla bağlı proqnozlar nikbindir

## *Asiya İnkişaf Bankı bu il Azərbaycanda ümumi daxili məhsul artımının 5% təşkil edəcəyini bildirir*

*Hər bir ölkənin iqtisadi inkişaf tempini və qlobal maliyyə təhdidlərinə səmərəli müqavimət potensialını xarakterizə edən başlıca amillərdən biri də makroiqtisadi dayanıqlıqdır. Son illər əksər nüfuzlu beynəlxalq maliyyə institutları, eləcə də reytinq agentlikləri Azərbaycanın bu sahədə öncül ölkələrdən biri olduğunu etiraf edirlər.*




Asiya İnkişaf Bankının (AİB) bir neçə gün əvvəl açıqlanmış «Asiya İnkişafına Baxış-2014» adlı illik hesabatı, bu baxımdan, maraq doğurur. Hesabatda qlobal iqtisadi tendensiyalar fonunda Asiya ölkələrinin 2014-cü il üzrə inkişaf perspektivləri nəzərdən keçirilmiş, müqayisəli təhlillər aparılmışdır. AİB ekspertəri hesab edirlər ki, 2014-cü ildə Asiya regionu ölkələri üçün ümumən sabit və davamlı inkişafla yaddaqalan olacaq. Bu, əsasən, Çin Xalq Respublikasının iqtisadı artım tempinin azalması və canlanmaqda olan iqtisadiyyatların tələbatının azalması fonunda baş verəcək.

Hesabatda inkişafda olan Asiya ölkələrində bu il ÜDM-in artımının 6,2%, 2015-ci ildə isə 6,4% olacağı proqnozlaşdırılır. Qeyd olunur ki, 2013-cü ildə region üzrə iqtisadi artım orta hesabla 6,1% təşkil etmişdir. AİB-in prezidenti Takehiko Nakaonun sözlərinə görə, inkişafda olan Asiya ölkələri çətin qlobal iqtisadi şəraitdə müvəffəqiyyətlə irəliləməyə davam edirlər və yaxın iki ildə davamlı iqtisadi artım əldə etmək iqtidarındadırlar. «Yaxın keçmişlə müqayisədə iqtisadi artım tempinə təsir edə biləcək maneələr zəifləmişdir və siyasətçilər onların öhdəsindən gələ bilərlər. Region ölkələri düzgün makroiqtisadı siyasətin və struktur islahatlarının aparılmasına davam etməlidirlər», - T.Nakao bildirib.

Sənəddə Azərbaycanla bağlı proqnozların yaxşılaşması da ölkəmizin son illər iqtisadi sahədə əldə etdiyi nailiyyətlərə əsaslanır. AİB-in proqnozlarına görə, 2014-cü ildə Azərbaycan üzrə ÜDM-in artımı 5% təşkil edəcək. Bankın əvvəlki proqnozunda bu göstərici 4,8% təşkil edirdi. Hesabata əsasən, cari il üçün ölkədə inflyasiyanın 4% təşkil edəcəyi gözlənilir.

AİB-lə yanaşı, beynəlxalq «Fitch Ratings» reytinq agentliyi də son hesabatında Azərbaycanda makroiqtisadi vəziyyəti sabit dəyərləndirib. Agentlik ölkəmizin xarici və milli valyutada uzunmüddətli defolt emitenti reytinqlərini («RDE») «BBB-» səviyyəsində təsdiqləyib. Ölkənin xarici və milli valyutada prioritetli təmin edilməmiş istiqrazlarının reytinqləri də «BBB-» səviyyəsində təsdiq edilib. Agentliyin analitikləri Dövlət Neft Fondundan büdcəyə transfertlərin tədricən azaldılmasını və qeyri-neft gəlirlərinin artımını müsbət tendensiya kimi dəyərləndirirlər.

Bütün bunlar göstərir ki, dünya ölkələrində qlobal böhranın mənfi təsirlərinin hələ də duyulduğu, borc böhranının kəskinləşdiyi bir dövrdə respublikamız yüksək makroiqtisadi dayanıqlıq nümayiş etdirir. Bu da son illərdə ölkədə güclü maliyyə mənbələrinin formalaşması ilə şərtlənir. Azərbaycanda dövlət borcunun ümumi daxili məhsula nisbəti 7% həcmindədir.

Neft gəlirlərinin, valyuta ehtiyatlarının səmərəli idarə edilməsi, o cümlədən çevik pul-kredit siyasətinin həyata keçirilməsi, milli valyutanın möhkəmlənməsi və kursunun sabit qalması nəticəsində Azərbaycan 10 il müddətində strateji valyuta ehtiyatlarının həcmini dəfələrlə artırmağa nail olub. Ölkənin strateji valyuta ehtiyatları 50 milyard dollar təşkil edir ki, bu da ümumi daxili məhsulun təxminən 90%-nə bərabərdir. Hazırda ölkənin strateji valyuta ehtiyatları üçillik idxalın və xidmətlərin maliyyələşdirilməsinə kifayət edir və bu, iqtisadi təhlükəsizlik baxımından dünya miqyasında ən yaxşı göstəricilərdən sayılır. Bunu əsas makroiqtisadi göstəricilərdən hesab edən maliyyə institutları ortamüddətli dövrdə Azərbaycan iqtisadiyyatını həm qlobal, həm də lokal təhdidlərə qarşı kifayət qədər dayanıqlı hesab edirlər. Digər mühüm göstərici isə büdcə xərclərinin optimal səviyyədə - ümumi daxili məhsulun 30-40%-i civarında saxlanılmasıdır.

Bu göstəricilər həm də hökumətin investisiyaların şaxələndirilməsi sahəsində yürütdüyü siyasətin səmərəliliyinə dəlalət edir. Neftdən əldə olunan gəlirlərin qeyri-neft sektoruna, istehsal sahibkarlığının inkişafına yönəldilməsi, özəl sektorun ümumi daxili məhsulda xüsusi çəkisinin artırılması təmin edilir. Respublikanın iqtisadi resurslarının düzgün və məqsədyönlü realizə edilməsi, real sektorun dəstəklənməsi, sənayeləşmənin stimullaşdırılması, maliyyə-bank sektorunun fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılması, vergi mühitinin liberallaşdırılması tədbirləri ölkənin investisiya cəlbediciliyinin yüksəlməsinə təsirini göstərir.

Davamlı makroiqtisadi sabitliyə təsir göstərən amillər arasında iqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığın inkişafı və sənaye potensialının gücləndirilməsi tədbirləri də xüsusi yer tutur. Strateji hədəflərinə doğru inamla irəliləyən respublikamızın 2014-cü ildə qeyri-neft sektorunun nəzərəçarpacaq artımı hesabına karbohidrogen resurslarından asılılığın azaldılması, investisiya cəlbediciliyinin, makroiqtisadi sabitliyin qorunub saxlanılması, qlobal infrastruktur layihələrinin reallaşdırılması və digər mühüm istiqamətlərdə pozitiv göstəricilərə nail olacağı gözlənilir.

**S.MUSTAFAYEV**

# Azərbaycanın iqtisadi sahədə beynəlxalq nüfuzu yüksəlir

*Dünya İqtisadi Forumunun müxtəlif ölkələrin qlobal ticarətdə iştirakına dair hesabatı açıqlanıb. Azərbaycan təşkilatın dünya ticarətinə cəlb edilmə qlobal reytinqi üzrə 4 pillə irəliləyib.*

Bir neçə göstərici əsasında müəyyənləşən hesabatda respublikamız «Daxili bazara çıxış», «Sərhəddə inzibati idarəetmə», «İşgüzar mühit», «Nəqliyyat və kommunal infrastruktur» göstəriciləri üzrə son bir ildə daha çox irəliləyişlər əldə edib. Ölkəmiz «Biznes əməliyyatlarında İKT-dən istifadə» üzrə 46-cı və infrastrukturun vəziyyəti sahəsində 45-ci olmaqla 50 sabit dövlət qrupunda yer alıb. «Gömrük şəffaflığı indeksi» göstəricisi üzrə isə 39-cu yerdə qərar tutmaqla Azərbaycan MDB-də ən yaxşı nəticələrə malik ölkə kimi göstərilib.

İqtisadiyyat və Sənaye Nazirliyinin (İSN) Xarici ticarət siyasəti və ümumdünya ticarət təşkilatı şöbəsinin müdiri Bəxtiyar Alışovun sözlərinə görə, ölkəmizdə daxili bazarın qorunması, ticarət əməliyyatlarının liberallaşdırılması, idxal-ixrac əməliyyatlarının təkmilləşdirilməsi biznesmenlərimizin asan və maneəsiz xarici bazarlara çıxış imkanlarının artmasına şərait yaradıb. Dünya İqtisadi Forumunun hesabatında işgüzar mühitin yaxşılaşması, ticarət rejiminin sadələşdirilməsi kimi amillər xüsusi nəzərə alınıb. Azərbaycanda İxracın və İnvestisiyanın Təşviqi Fondunun (AZPROMO) sədri Rüfət Məmmədovu sözlərinə görə, son illər ölkəmizdə ticarət əməliyyatları üzrə qaydaların və idxal-ixrac rejiminin sadələşdirilməsi, elektron nəzarət sisteminin yaradılması sahəsində xeyli işlər görülüb. İdxal-ixrac əməliyyatlarının aparılmasının liberallaşdırılması sahəsində islahatlar nəticəsində 2009-cu ildən Azərbaycanın dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipi tətbiq edilib. Avropa Birliyi, ABŞ, Yaponiya, Rusiya Federasiyası, Körfəz dövlətləri, Orta Şərq və MDB ölkələri ilə qarşılıqlı idxal-ixrac əməliyyatları sahəsində səmərəli addımlar atılıb, ölkəmizin ixrac imkanları və xarici bazarlara çıxış potensialı təşviq olunub. Yeni qəbul olunmuş Gömrük Məcəlləsi ticarət əməliyyatlarının sadələşdirilməsinə imkan yaradıb, idxal-ixraca aid inzibati prosedurlar xeyli asanlaşdırılıb. Nəticədə ticarət əməliyyatları zamanı tələb olunan sənədlər, sərf edilən müddət və xərclər azaldılıb. Ölkədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması, sərhəd-keçid məntəqələrində elektron nəzarətin yaxşılaşdırılması Azərbaycan hökumətinin diqqət mərkəzindədir. Ölkəmizin beynəlxalq ticarət sisteminə inteqrasiyasının dərinləşməsi və qlobal ticarətdə iştirakının artması məqsədilə idxal-ixrac əməliyyatlarının liberallaşmasına yönəlmiş islahatlar davam etdirilir.

Dövlət başçısının ötən ay imzaladığı «Sahibkarlığın inkişafı üçün əlavə tədbirlər haqqında» fərmanının icrasına uyğun olaraq idxal-ixrac əməliyyatları üçün tələb edilən sənədlərin sayının və elektron qeydiyyatın prosedur və müddətlərinin azaldılması istiqamətində işlər görülür. Azərbaycan idxal-ixrac əməliyyatlarının elektronlaşdırılması sahəsində Sinqapurun qabaqcıl təcrübəsindən istifadə edəcəkdir. Qeyd edək ki, Sinqapur Dünya İqtisadi Forumunun qlobal ticarətdə iştiraka dair hesabatında ilk yerdə qərarlaşıb və liberal ticarət infrastrukturunun yaradılması, biznes əməliyyatlarında tətbiq olunan innovativ elektron idarəetmə sisteminin vəziyyətinə görə qabaqcıl ölkə hesab edilir. İSN-in mütəxəssisləri idxal-ixrac əməliyyatlarında «bir pəncərə» sisteminin təkmilləşdirilməsi və yeni mexanizmlərin tətbiqi məqsədilə Sinqapurda təcrübə keçiblər.

Əldə olunmuş təcrübəyə əsasən, qanunvericiliyin təkmilləşdirilməsi və bir sıra texniki-hüquqi məsələlərin həll olunması nəzərdə tutulur. Bəzi normativ-hüquqi aktlara dəyişiklik edilməklə idxal-ixrac zamanı gömrük nəzarətinin həyata keçirilməsi üçün cəmi 2 sənəd (nəqliyyat sənədi və bəyannamə) tələb olunacaq. Bununla da müvafiq sənədlərin sayı idxalda 11-dən 2-yə, ixracda isə 8-dən 2-yə endiriləcəkdir. Ümumilikdə isə tələb olunan sənədlərin sayı 19-dan 4-dək azalacaqdır.

Gözlənildiyi kimi, infrastrukturun tamamilə müasir tələblərə uyğun şəkildə qurulması, idxal-ixrac sistemində avtomatlaşdırılmış idarəetmənin tam tətbiq edilməsi ticarət-iqtisadi münasibətlərdə gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsinə, ölkəmizin iqtisadi təhlükəsizliyinin möhkəmlənməsinə və Ümumdünya Ticarət Təşkilatına üzv olma prosesinin sürətlənməsinə əlverişli zəmin yaradacaq.

**Elbrus CƏFƏRLİ**

"VERGİLƏR" MÖVZUSUNDA VIII ÜMUMRESPUBLİKA OLİMPİADASI

APREL AYININ 25-də
AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
İLƏ BİRLİKDƏ ALİ MƏKTƏB TƏLƏBƏLƏRİ VƏ MAGİSTRANTLAR ARASINDA
AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ
Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş olimpiada keçirir

Olimpiada test üsulu ilə təşkil olunacaq, qaliblər diplomlar və qiymətli hədiyyələrlə mükafatlandırılacaqlar. İştirak etmək istəyən tələbə və magistrantlar ali məktəblərin rektoratlıqlarına müraciət edə bilərlər.

Sənədlər aprelin 18-dək qəbul edilir

Əlaqə telefonu: (+994 12) 403-87-92



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

## Kommersiya təşkilatları tərəfindən maliyyə hesabatlarının təqdim edilməsi istiqamətləri

«Mühasibat uçotu haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq «Kommersiya təşkilatları» anlayışına uyğun gələn hüquqi şəxslərin (kredit təşkilatları və kiçik sahibkarlıq subyektləri istisna) rəhbər və səhmdarlarını (təsisçilərini) maraqlandıran məsələlərdən biri də hüquqi şəxsin maliyyə hesabatlarının hansı müddətdə hazırlanması və hara təqdim edilməsidir.

Bütün bunlara aydınlıq gətirilməsi üçün hazırda qüvvədə olan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 97 nömrəli 27 may 2010-cu il tarixli Qərarı ilə təsdiq olunmuş «Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi və dərc edilməsi Qaydaları»na (irəlidə «qərar» adlanır) diqqət yetirmək lazımdır. Xatırladaq ki, bu qərara Azərbaycan Respublikası Nazirlər Kabinetinin 191 nömrəli 06 sentyabr 2012-ci il tarixli Qərarı ilə dəyişikliklər edilmişdir. Sual qoyuluşu əsasında maraqlı məsələlərə aydınlıq gətirək.

***Sual 1. Kommersiya təşkilatı hansı müddətədək maliyyə hesabatlarını hazırlamalıdır?***

Qaydaların maliyyə hesabatlarının sonuncu təqdimetmə gününü müəyyən edən 3.1-ci bəndinə əsasən, kommersiya təşkilatları (təşkilatın rəhbərliyi) hesabat dövrü başa çatdıqdan sonra illik maliyyə hesabatlarını sonrakı ilin aprel ayının 30-dan, birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını isə iyun ayının 30-dan gec olmayaraq təqdim etməlidirlər.

***Sual 2. Maliyyə hesabatları kimə və ya hara təqdim edilməlidir?***

Qaydaların 3.2-ci bəndinə əsasən, kommersiya təşkilatları (təşkilatın rəhbərliyi) illik maliyyə hesbatlarını tabe olduğu yuxarı təşkilata və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını tərtib edən əsas cəmiyyətə, bunlar olmadıqda isə təsisçiyə (təsisçilərə) təqdim edir.

***Sual 3. Əlavə olaraq maliyyə hesabatları başqa yerə təqdim edilməlidirmi?***

Qaydaların 3.5-ci bəndinə görə, kommersiya təşkilatlarının içərisindən dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edən, həmçinin büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrılan kommersiya təşkilatları (təşkilatın rəhbərliyi) illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını qanunla müəyyən edilmiş hallarda və qaydada auditor rəyi ilə birlikdə Maliyyə Nazirliyinə təqdim edirlər.

***Sual 4. Kommersiya təşkilatlarının tabe olduqları yuxarı təşkilatının və ya təsisçisinin (təsisçilərinin) maliyyə hesabatları ilə bağlı hansı öhdəliyi vardır?***

Maliyyə hesabatları ilə bağlı rəhbərlikdən başqa təsisçilərin də öhdəliyi vardır. Belə ki, Qaydaların 3.4-cü bəndinin tələbinə görə, kommersiya təşkilatının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi barədə məlumatlar onların tabe olduqları yuxarı təşkilat və ya təsisçi (təsisçilər) tərəfindən bu hesabatların sonuncu təqdimetmə günündən sonra 10 gün ərzində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə verilir. Deməli, illik maliyyə hesabatlarını təqdim etməli olan kommersiya təşkilatlarının tabe olduqları yuxarı təşkilatı və ya təsisçisi (təsisçiləri) may ayının 1-dən 10-dək, birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını təqdim etməli olan kommersiya təşkilatlarının tabe olduqları yuxarı təşkilatı və ya təsisçisi (təsisçiləri) isə iyul ayının 1-dən 10-dək müvafiq maliyyə hesabatları barədə məlumatları Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə verirlər.

**Davamı növbəti sayımızda**

# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**4-cü MƏRHƏLƏ** *(davamı)*

Hörmətli oxucular, bir daha xatırlatmaq istəyirik ki, qəzetin 05.03.2014-cü il tarixli 09 (699)-cu, 12.03.2014-cü il tarixli 10 (700)-cu, 19.03.2014-cü il tarixli 11 (701)-ci və 02.04.2014-cü il tarixli 12 (702)-ci saylarında Baş kitabın tərtib olunması ilə bağlı tövsiyələr sizə təqdim edilmişdir. Nəzərinizə çatdırmaq istəyirik ki, Baş kitabın tərtib olunması qəzetin 05.02.2014-cü il tarixli 05 (695)-ci sayında, 19.02.2014-cü il tarixli 07 (697)-cü sayında və 26.02.2014-cü il tarixli 08 (698)-ci sayında göstərilən 49 sayda əməliyyata verilən ikili yazılışı əks etdirən əməliyyat jurnalı əsasında həyata keçirilir. Lakin sınaq balansının hazırlanması üçün əməliyyat jurnalında əks etdirilən 49 sayda əməliyyatın həlelik yalnız 45-ni nəzərə almışıq. Yəni ilkin olaraq həmin 45 əməliyyat çərçivəsində Baş kitab tərtib edilmişdir.

İndi isə sınaq balansının tərtib edilməsinə başlayaq. Sınaq balansını hər bir hesabın Baş kitab qeydlərində sonuncu qalıq məbləğləri əsasında hazırlamaq lazımdır. Qeyd edək ki, sınaq balansı balans hesablarının №-sini, adlarını, aktivlər üzrə debet qalıqlarını və öhdəliklər, kapital, gəlirlər və xərclər üzrə kredit qalıqlarını özündə əks etdirən aşağıdakı formada tərtib olunan cədvəldir:

**SINAQ BALANSI**
**«___» ___________ il tarixinə**

| Hesabın №-si | Hesabın adı | DEBET (məbləğ) | KREDİT (məbləğ) |
|---|---|---|---|
| | | | |
| | | | |
| | CƏMİ | | |

«Hesabın №-si» sütununda hesablar planı üzrə hesabın nömrəsi qeyd edilir. Hesabların nömrələrinin artan ardıcıllıqla qeyd edilməsi tövsiyə olunur. «Hesabın adı» sütununda hesablar planı üzrə hesabın nömrəsinə uyğun adı yazılır. «Debet» və «Kredit» sütunlarında isə №-si və adı qeyd edilən hesabın Baş kitabdakı sonuncu qalığı əks etdirilir. Məsələn, 222 №-li «Bank - milli valyuta ilə cari hesab»ın debet üzrə göstərilən 38930 manat məbləğ sınaq balansında əks etdirilməlidir.

Sınaq balansını tərtib edək.

**PƏRAKƏNDƏ TİCARƏT OBYEKTİ**
**SINAQ BALANSI**
**«31» yanvar 2014-cü il tarixinə**

| Hesabın №-si | Hesabın adı | DEBET (məbləğ) | KREDİT (məbləğ) |
|---|---|---|---|
| 111 | Torpaq, tikili və avadanlıqlar - dəyər | 95000 | |
| 112 | Torpaq, tikili və avadanlıqlar - amortizasiya | (22500) | |
| 205 | Mallar | 145650 | |
| 211 | Alıcıların və sifarişçilərin qısamüddətli debitor borcları | 103400 | |
| 221 | Kassa | 49850 | |
| 222 | Bank – milli valyuta ilə cari hesab | 38930 | |
| 301 | Nominal (nizamnamə) kapital | | 70000 |
| 501 | Qısamüddətli bank kreditləri | | 80000 |
| 522 | Sosial sığorta və təminatlar üzrə öhdəliklər | | 3100 |
| 531 | Malsatan və podratçılara qısamüddətli kreditor borcları | | 207370 |
| 533 | Əməyin ödənişi üzrə işçi heyətinə qısamüddətli kreditor borcları | | 3140 |
| 601 | Satış | | 383400 |
| 701 | Satışın maya dəyəri | | (273350) |
| 711 | Kommersiya xərcləri | | (35560) |
| 721 | İnzibati xərclər | | (15110) |
| 751 | Maliyyə xərcləri | | (12660) |
| | **CƏMİ** | **410330** | **410330** |

Diqqətlə baxsaq görərik ki, 201, 302, 521 və 537-ci hesablar üzrə əməliyyatlar baş verməsinə baxmayaraq, sınaq balansında bu hesablar üzrə qeydlər aparılmamışdır. Buna səbəb həmin hesablar üzrə son qalığın sıfra bərabər olmasıdır. Digər tərəfdən də xərcləri əks etdirən 701, 711, 721 və 711 №-li hesabların Baş kitabdakı son debet qalıqları mötərizə içərisində (məbləğin mötərizə içərisində yazılışı «minus»u bildirir) sınaq balansının kredit hissəsində qeyd edilmişdir. Buna səbəb xərc hesabının gəliri azaldan tərəf və kapitalı formalaşdıran bir element kimi çıxış etməsidir. 112 №-li hesabın da son kredit qalığı mötərizə içərisində sınaq balansının debet hissəsində qeyd edilmişdir. Bu hesab kontur hesabdır və torpaq, tikili və avadanlıqların ilkin dəyərini azaldır. Bu hesabı mahiyyətinə görə nə kapital, nə öhdəlik, nə gəlir, nə də xərc kimi görmək mümkün deyildir.

Nəhayət, biz bütün hesabların son qalıqlarının debet və kredit üzrə yekun bərabərliyinin yoxlanılması məqsədilə şaquli istiqamətdə siyahı - sınaq balansı tərtib etdik və qalıqlar həm debet, həm də kredit üzrə eyni məbləğdən ibarətdir, yəni hər iki tərəfdə 410330 manat yaranmışdır. Bu o deməkdir ki, tərtib etdiyimiz Baş kitab düzgündür.

**Davamı növbəti sayımızda**




### vergi təqvimi

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| APREL | | | | | | |
| I | II | III | IV | V | VI | VII |
| | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 |
| 28 | 29 | 30 | | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**
15 aprel - «(1) və (2)».
22 aprel - «(1-1)», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11».

**«1» - Gəlir vergisi:** Gəlir vergisi üzrə hesabat dövrü təqvim ilidir. Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına bəyannamə verir və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisini dövlət büdcəsinə ödəyirlər.

**«2» - Mənfəət vergisi:** Mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Mənfəət vergisinin ödəyicisi hesab edilən rezident müəssisələr, habelə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) vergini ödəyir və qeydiyyatda olduğu vergi orqanına bəyannamə təqdim edir.

Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə), digər müəssisələr isə dövlət büdcəsinə ödəyirlər.

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir. Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Müəssisənin əmlak vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Əmlak vergisinin ödəyicisi olan müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verir və vergini həmin müddətədək son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) dövlət büdcəsinə ödəyir.

**«7» - Yol vergisi:** Müəssisənin yol vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Azərbaycan Respublikasının ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər yol vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir və həmin müddətədək hesablanmış vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# Yaponiyada istehlak vergisi artırılıb

*Aprelin 1-dən ölkədə istehlak vergisi 5%-dən 8%-dək yüksəlib. Belə bir hal 17 il ərzində ilk dəfədir baş verir.*



Yaponiya hökumətinin qiymətləndirməsinə əsasən, istehlak vergisinin artırılması 2014-cü maliyyə ilində təxminən 5 trilyon iyen və ya təxminən 49 milyard dollar əlavə vəsait əldə etməyə imkan verəcək. 2015-ci maliyyə ilində bu rəqəmin təxminən səkkiz trilyon iyenə və ya 78 milyard dollara çatacağı gözlənilir.

Bu pullar sosial təminata, məsələn, səhiyyə və pensiya proqramlarına, ölkə əhalisinin qocalması probleminin həllinə yönəldiləcək.

Bununla belə, bəzi iqtisadçılar vergi dərəcələrinin artırılmasının istehlakın tempini ləngidə biləcəyi barədə xəbərdarlıq edirlər.

Hökumət iqtisadi artımın dəstəklənməsi və istehlak fəallığının zəifləməsini minimuma endirmək məqsədilə ümumi dəyəri 53 milyard dollar olan stimullaşdırma tədbirləri zərfinin hazırlandığını da bəyan etmişdir.

# Fransada muzdlu işçilərdən tutulan vergilər və ödənişlər azaldılacaq

*Prezident Fransua Olland yeni hökumətin «muzdlu işçilərdən tutulan vergilərin və ödənişlərin azalması» məsələsi ilə məşğul olacağına söz verib. Yeni nazirlər kabinetinin iş proqramı «Həmrəylik paktı»nda açıqlanacaq.*

Baş nazir Jan-Mark Eyronun istefasından sonra hökuməti Fransa DİN-in sabiq rəhbəri Manuel Vals formalaşdıracaq və hökumətə rəhbərlik edəcək. «Həmrəylik paktı»nın müddəalarını da o həyata keçirməlidir. Prezident F. Olland televiziya müraciətində paktın bünövrəsinin ilk növbədə gənclərin təhsili və təlimindən, ikincisi, səhiyyənin üstünlük verildiyi sosial təminatlardan, eləcə də 2017-ci ildən başlayaraq vergi və ödənişlərin azaldılması yolu ilə fransızların alıcılıq qabiliyyətinin gücləndirilməsidən ibarət olduğunu bildirmişdir.

# İspaniya vergilərin azaldılmasını planlaşdırır

*Hökumət əmindir ki, artıq 2015-ci il yanvarın 1-dən ölkə əhalisi əhəmiyyətli iqtisadi irəliləyişin şahidi olacaq. Siyasətçilər bunu, ilk növbədə, gözlənilən vergi islahatları ilə əlaqələndirirlər.*

İspaniyanın Maliyyə Naziri Kristobal Montoro «ölkədə iqtisadi vəziyyətin getdikcə yaxşılaşdığını, vergi daxilolmaların həcminin artdığını» bildirib.

K.Montoro qeyd edib ki, hökumət azalmanı digər vergilərin artırılması hesabına kompensasiya etmək niyyətində deyil.

Nazirin sözlərinə görə, islahat İspaniyanın bütün vətəndaşlarından tutulan vergilərin azalmasına imkan verəcək. Lakin bunu ilk növbədə əhalinin aztəminatlı təbəqələri hiss edəcəklər. O da qeyd olunmuşdur ki, hökumət İspaniya muxtariyyətlərinin maliyyə sistemlərinin dəyişdirilməsi üzərində fəal iş aparır.

# Şist qazı hasilatına vergi güzəştləri tətbiq olunacaq

Polşa hökuməti ölkədə şist qazının hasilatına 6 il müddətində vergi güzəştlərinin tətbiq olunmasını təklif etmişdir. Hökumət ümid edir ki, bu tədbir sahənin inkişafını əhəmiyyətli dərəcədə sürətləndirəcək və Ukraynada yaranan gərgin vəziyyət fonunda ölkənin Rusiya qazının idxalından asılılığını azaldacaq.

Ölkə hökuməti şist qazının hasilatı ilə əlaqəli olan sahə üçün xüsusi işlənib hazırlanmış vergiləri 2020-ci ilədək tutmamaq barədə qərar qəbul etmişdir.

Xarici ölkələrin təcrübəsi:

# Gürcüstan Respublikasının vergi sistemi: sahibkarlığın stimullaşdırılması

Gürcüstanda 2004-2011-ci illər vergi islahatlarından sonra sahibkarlıq subyektlərinin iqtisadi fəaliyyətinin stimullaşdırılması məqsədilə bir sıra güzəştlər tətbiq edilməyə başlamışdır. Hazırda tətbiq olunan mənfəət vergisinin dərəcəsi 15% təşkil edir. Eyni zamanda, ölkədə karbohidrat ehtiyatlarının istismarı ilə bağlı xüsusi qanunla neft-qaz resurslarının qazma və hasilatı ilə bağlı fəaliyyətə aid edilə bilən sahələrdən əldə olunan gəlirə münasibətdə 10%-lik dərəcə tətbiq edilir. Lakin bu müddəa yalnız 1998-ci ildən əvvəl bağlanmış müqavilələrə tətbiq edilir.

Gürcüstanda sahibkarlıq subyektləri üçün yaradılmış əsas stimullaşdırıcı tədbir kimi azad sənaye zonalarını (ASZ) göstərmək olar. Gürcüstan hökumətinin qərarı ilə 2008-ci ildə Poti şəhərində, 2009-cu ildə Kutaisi şəhərində ASZ yaradılmışdır. Poti liman şəhərində RAKİA ASZ Birləşmiş Ərəb Əmirliyinin maliyyə dəstəyi ilə 2008-ci ildə yaradılmışdır. İkinci ASZ Qərb-Şərq strateji nəqliyyat dəhlizinin üzərində yerləşən Kutaisi şəhərində 2009-cu ildə təşkil edilmişdir. ASZ-lərdə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması məqsədilə dövlət səviyyəsində vergigömrük, inzibati güzəştlər təqdim olunur. ASZ-lərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə bir sıra vergi-gömrük güzəştləri verilir.

ASZ-lərdə fəaliyyət göstərən xarici müəssisələrin stimullaşdırılması məqsədilə onların mənfəətindən sıfır dərəcə ilə vergi tutulur. Həm xarici, həm də yerli müəssisələrin kapital və mənfəətinin 100% həcmində repatriasiyası həyata keçirilir. ASZ-lərdə istehsal səviyyəsinin artırılması məqsədilə xammal və hazır məhsulların idxal və ixracı 100% gömrüksüz həyata keçirilir.

Qeyd olunan güzəştlərlə yanaşı, ASZ-lərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə əlavə olaraq aşağıdakı vergi imtiyazları da tətbiq edilə bilər:

- Vergi və Gömrük məcəllələrinə əsasən xüsusi icazə əsasında fəaliyyət göstərən beynəlxalq şirkətlərin azad ticarət zonasında əldə etdikləri mənfəət;
- Beynəlxalq maliyyə şirkətləri xüsusi status altında fəaliyyət göstərdiyi halda, maliyyə əməliyyatları və xidmətlərindən əldə etdikləri mənfəət;
- Gürcüstanın xüsusi ticarət şirkətləri xüsusi status altında fəaliyyət göstərdiyi halda təkrar ixracdan əldə etdikləri mənfəət;
- ASZ-də fəaliyyət göstərən müəssisələrin burada əldə etdikləri mənfəət.

Gürcüstanda fəaliyyət göstərən müəssisələr üçün amortizasiya ayırmalarında da bir sıra stimullaşdırıcı rejimlər tətbiq oluna bilər. Ümumilikdə sahibkarlıq subyektləri üçün müəssisənin mənfəət və ya zərərlə işləməsindən asılı olmayaraq, amortizasiya məcburidir. Dəyəri 1000 laridən ($605,7) artıq, istifadə müddəti bir hesabat ilindən çox olan əsas vəsaitlər amortizasiya oluna bilər. Torpaq, incəsənət nümunələri, muzey eksponatları, tarixi memarlıq nümunələri (binalardan başqa), iribuynuzlu mal-qara və digər heyvanlara amortizasiya hesablanmır. Dəyəri 1000 laridən az olan əsas vəsaitlər alındığı ildə birbaşa silinə bilər.

Amortizasiya olunan əsas vəsaitlər beş qrupdan birinə aid edilir. Amortizasiya hər bir aktiv üzrə deyil, qrup səviyyəsində hesablanır. Amortizasiya ayırmalarının normaları əsas vəsaitin aid olduğu qrupdan asılı olaraq 5-20% aralığında dəyişir. Əgər əsas vəsait amortizasiya olunduqdan sonra onun qalıq dəyəri 1000 laridən az olarsa, dərhal silinə bilər.

Sürətli amortizasiya bir sıra vəsaitlərə münasibətdə tətbiq edilə bilər. Bunlara kompüterlər, elektron qurğular, yük maşınları və borular aiddir. Lakin tətbiq olunan sürətli amortizasiya normal amortizasiya dərəcəsindən iki dəfədən artıq tətbiq edilə bilməz.

Sahibkarlıq subyektləri biznes və kapital zərərlərini 5 ilədək növbəti dövrə keçirə bilərlər. Lakin beynəlxalq maliyyə şirkətlərinə, ASZ-də fəaliyyət göstərən müəssisələr və xüsusi ticarət şirkətlərinə güzəştli şərtlər altında fəaliyyət göstərdiklərindən zərərin növbəti dövrə keçirilməsinə icazə verilmir.

Dünya maliyyə böhranından sonra 2010-cu ildən müəssisələrə vergi orqanına müraciət etməklə öz zərərlərinin 10 ilədək müddətə növbəti dövrə keçirilməsi hüququ verilmişdir.

Gürcüstanda ödəmə mənbəyində vergilərin tutulması mexanizmləri də bir sıra ölkələrdən fərqli xarakter daşıyır. Rezident müəssisələrə ödənilən dividend və royaltidən ödəmə mənbəyində vergi tutulmur. Ölkədə daimi nümayəndəliyi olmayan müəssisələrə ödənilən dividendlər 5%, royaltilər isə 10% dərəcə ilə ödəmə mənbəyində vergiyə cəlb olunur. Rezident müəssisələrə ödənilən faizlər 5% dərəcə ilə ödəmə mənbəyində vergiyə cəlb olunur. Beynəlxalq maliyyə qurumlarından əldə edilən faizlər həm ödəmə mənbəyində, həm də mənfəət vergisindən azad olunur.

1 yanvar 2014-cü ilədək aşağıdakı hallarda faizlər 0% dərəcə ilə ödəmə mənbəyində vergiyə cəlb olunur:

- Müəssisənin aldığı faizin tam məbləğinin kapital artımına yönəldilən hissəsi;
- Faiz ödəyən müəssisənin kapitalı faizdən ödəmə mənbəyində 5% dərəcə ilə vergi tutulan dövrdə azalmamışdırsa, bu növ faizlər qeyri-rezidentə ödənilmişdirsə gəlirdən çıxılmasına yol verilmir.

Bunlarla yanaşı, Vergi Məcəlləsinə əsasən, bir sıra xərclərin gəlirdən çıxılmasına yol verilmir:

- Sahibkarlıq fəaliyyətinə aid edilməyən və vergidən azad olunan fəaliyyətə aid edilən xərclər;
- Müəssisənin ödədiyi dividendlər;
- Təmsilçilik xərclərinin 99%-i (buraya tədbirlərin, prezentasiyaların keçirilməsi, ekskursiya, mədəni tədbirlərin keçirilməsi, suvenirlərin alınmasına çəkilən xərclər və s. daxildir)

Mənfəət vergisi üzrə vergi dövrü təqvim ili hesab olunur.

Mənfəət vergisi üzrə vergi bəyannamələrinin təqdim edilmə müddəti illik mənfəət vergisi bəyannaməsi vergi ilindən sonrakı təqvim ilinin 31 mart tarixinədək təqdim edilməlidir. Bəyannamənin təqdim edilmə müddəti 3 ay uzadıla bilər, lakin vergi ödəyicisi hesablanan mənfəət vergisi məbləğini vergi ilindən sonrakı təqvim ilinin 1 aprel tarixinədək ödəməlidir.

Vergi ödəyicisi mənfəət vergisi üzrə ödənilməli olan vergini növbəti il üçün ümumi mənfəət vergisi öhdəliyinin 25%-i həcmində rüblük avans (cari) ödənişləri şəklində etməlidir. Rüblük avans ödənişlərinin ödənilməsinin son tarixləri 15 may, 15 iyul, 15 sentyabr, 15 dekabrdır.

*Rubrikanı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi aparır*

krossvord



**Yuxarıdan aşağı:**

1.İsrailin pul vahidi; 2.Radioqəbuledicinin və valoxudanın birləşdirildiyi cihaz. Ötən əsrin 40-80-ci illərində geniş yayılmış məişət texnikası; 3.Rusiya Federasiyasında şəhər; 4.Respublikamızda rayon; 6.Tərki-dünya həyat sürən dini icmanın üzvü; 7.ABŞ-da şəhər; 8.İrlandiya yazıçısı Brem Stokerin romanı; 13.Qırıq xətt; 14.Asiyanın şərq sahillərində ada; 16.Mexaniki soyuq atıcı silah növü; 17.Xromun mineralı; 19.Verilmiş proqram əsasında müəyyən işləri yerinə yetirən stasionar və ya hərəkətli şəkildə fəaliyyət göstərən maşınlar; 21.Yuxarı tənəffüs yollarının xəstəliyi; 22.Bitki cinsi *(meyvə)*.

**Soldan sağa:**

1.İngilis yazıçının adı. «Ceyn Air» romanının müəllifi; 5.Şəxsiyyətin fərdiliyini müəyyənləşdirən və onu təsdiq edən, şəxsən özü tərəfindən əl ilə yazılmış simvol; 9.Rəsmi orqanların, yaxud idarələrin, eləcə də vergi ödəməyə cavabdeh olan torpaq sahiblərinin siyahısı, reyestri; 10.Bakterisid antibiotik; 11.Ukraynada şəhər; 12.Qızıl Orda xanı, Cuçi xanın oğlu; 14.Müəssisənin təşkilini və fəaliyyətini tənzimləyən hüquqi sənəd; 15.«O olmasın, bu olsun» (1956) filmində Məşədi İbad obrazını canlandıran teatr və kino aktyorunun adı (1913-1983); 18.Yapon samuraylarının özünə qəsd etməsi; 20.Türk mifologiyası və xalq inancında vampir; 23.Dövlət siyasətinə təsir göstərən şəxslər qrupu; 24.Satirik kinojurnal; 25.Rusiya Federasiyasının Murmansk vilayətində çay; 26.Ağız boşluğunun yumşaq toxumalarının selikli qişasının iltihabı.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kubok; 2.Mazurka; 3.Rova; 4.Orakul; 6.Anime; 7.Kvartet; 8.Seminar; 13.General; 14.Samsunq; 16.Qorilla; 17.Nefrit; 19.Rubin; 21.Kioto; 22.Şnek.

**Soldan sağa:** 1.Kamerton; 5.Bank; 9.Buzovna; 10.Elita; 11.Kerç; 12.Rudiment; 14.Skaner; 15.Manqıt; 18.Mersedes; 20.Frak; 23.Umbra; 24.Ronaldo; 25.Qanq; 26.Stakkato.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14200

## idman

# Güləş üzrə Avropa çempionatı başa çatdı

**Finalda erməni güləşçini böyük hesabla məğlub edərək çempion adını qazanan Ruslan Dibirhacıyev rəqibini Azərbaycanın dövlət himnini başıaşağı dinləməyə məcbur etdi**




*Finlandiyanın Vantaa şəhərində böyüklər arasında güləş üzrə Avropa çempionatına yekun vurulub. Azərbaycan yığması 3 qızıl, 5 gümüş və 2 bürünc medalla çempionatı 2-ci pillədə başa vurub.*

Yarışların son günündə 71, 75, 80 və 85 kq çəki dərəcəsində yunan-Roma güləşçiləri mübarizəyə qoşulublar. 71 kq-da yarışan Rəsul Çunayev 1/8 finalda Sergey Mironovla (Latviya) güləşib və 8:0 hesabıyla üstün olub. 1/4 finalda o, türkiyəli Yunus Özelə də 9:1 hesabıyla qalib gəlib. Yarımfinaldakı rəqibinə, Ukrayna təmsilçisi Armen Vardanyana da tam üstünlüklə qalib gələn (9:0) Çunayev adını finala yazdırıb. Həlledici görüşdə Tamaş Lorintsaya (Macarıstan) uduzan Rəsul gümüş medalla kifayətlənib.

75 kq çəki dərəcəsində mübarizə aparan Elvin Mürsəliyev 1/8 finalda Aleksandr Çekirkinə məğlub olsa da, rəqibi finala qədər irəlilədiyindən təsəlliverici görüşlərdə iştirak hüququ qazanıb. O, bürünc medal yolunda ilk rəqibi Mateuş Volnı (Polşa) 3:2 hesabıyla məğlub edib. Son görüşdə də Laslo Şaboya (Macarıstan) qalib gələn həmyerlimiz bürünc medala sahib çıxıb.

Rafiq Hüseynov (80 kq) 1/8 finalda Ukrayna təmsilçisi Aleksandr Şişmanla qarşılaşıb və 2:8 hesabıyla uduzub. Ukraynalı güləşçi növbəti mərhələdə uduzduğundan Rafiqin təsəlliverici görüşlərə qatılması mümkün olmayıb. Saman Təhmasibi (85 kq) də 1/8 finalda litvalı Laymutis Adomaytisə məğlub olub - 3:8. Litvalı güləşçi finala çıxa bilmədiyindən Təhmasibinin bürünc medal qazanmaq istəyi də baş tutmayıb.

Xatırladaq ki, Azərbaycan yığması AÇ-2014-ün əvvəlki günlərində 8 medal qazanmışdı. Qadın güləşində Mariya Stadnik (48 kq) qızıl, İrina Netreba (58 kq) gümüş medala yiyələnib. Sərbəst güləş yarışlarında Hacı Əliyev (61 kq) və Ruslan Dibirhacıyev (70 kq) Avropa çempionu olub, Xetaq Qazyumov (97 kq) və Cəbrayıl Həsənov (74 kq) gümüş medala sahib çıxıb. Yunan-roma güləşində isə Həsən Əliyev (66 kq) gümüş, Kamran Məmmədov (59 kq) bürünc medal qazanıb.

# "Tour d'Azerbaidjan-2014"ün təşkilat komitəsinin iclası

*Aprelin 4-də «Tour d'Azerbaidjan-2014» beynəlxalq velosiped turunun təşkilat komitəsinin iclası keçirilmişdir. Azərbaycan Velosiped İdmanı Federasiyasının (AVİF) vitse-prezidenti və turun təşkilat komitəsinin sədri Sahib Ələkbərov «Tour d'Azerbaidjan-2014» beynəlxalq velosiped turu barədə məlumat vermişdir.*

Bildirilmişdir ki, ümummilli lider Heydər Əliyevin 91 illiyinə həsr olunan velosiped turu Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi və Beynəlxalq Velosipedçilər İttifaqının dəstəyi ilə AVİF tərəfindən təşkil olunur. Mayın 7-də start götürəcək «Tour d'Azerbaidjan-2014» beş mərhələdə keçiriləcəkdir. Bakıdan start götürən ilk mərhələ Sumqayıtda başa çatacaqdır. Sonrakı mərhələ isə Bakı və 8 rayonu əhatə edəcəkdir. Beş mərhələnin marşrutlarının ümumi uzunluğu 840 kilometrə yaxındır.

S.Ələkbərov vurğulamışdır ki, ötən il keçirilmiş yarışın yüksək səviyyədə təşkil olunduğunu nəzərə alan Beynəlxalq Velosipedçilər İttifaqı bu il yarışların statusunu bir qədər də yüksəldərək 2.1 kateqoriyasına keçirmişdir. Əgər əvvəllər veloturda əsasən kontinental və yığma komandalar iştirak edirdisə, 2.1 formatında təşkil olunacaq yarışda pro-kontinental, kontinental və milli yığma komandalar da mübarizə aparacaqlar.

Yarışlarda 22 ölkədən, o cümlədən Azərbaycan, ABŞ, İtaliya, Almaniya, Türkiyə, Rusiya, Avstriya, Hollandiya, Belçika, Çin, Danimarka, Avstraliya, Latviya, Ukrayna, Belarus, Qazaxıstan və digər ölkələrdən 500-dən çox velosipedçinin iştirakı gözlənilir. Veloturda «Synergy Baku Cycling Project» daxil olmaqla 25 komanda iştirak edəcəkdir. Onların arasında 8 peşəkar kontinental, 16 kontinental və bir milli komanda vardır. İclasda veloturun təşkilat komitəsinin üzvü, Almaniyanın «Freunde Eventagentur GMBH» şirkətinin rəhbəri Albrext Röder çıxış edərək turun marşrutları və texniki məsələləri barədə məlumat vermişdir. Sonra «Tour d'Azerbaidjan» beynəlxalq velosiped turunun təşkilati işləri barədə müvafiq dövlət qurumlarının və yerli icra orqanlarının məsul nümayəndələri ilə fikir mübadiləsi aparılmış, işlərin daha yüksək səviyyədə təşkili istiqamətində tədbirlər müzakirə edilmiş və müvafiq tapşırıqlar verilmişdir. «Tour d'Azerbaidjan-2014» velosiped turunun bütün mərhələlərinin yerli və xarici kütləvi informasiya vasitələrində, o cümlədən «Eurosport» televiziya kanalı vasitəsilə geniş işıqlandırılması nəzərdə tutulur.

# Mərhum qrossmeysterimizin xatirəsinə...

*«Synergy Group» ASC bu yaxınlarda dünyasını dəyişmiş məşhur Azərbaycan şahmatçısı, Avropa çempionu, nüfuzlu dünya turnirlərinin çempionu Vüqar Həşimovun xatirəsinə ehtiram əlaməti olaraq güclü şahmatçıların dairəvi turnirini təşkil edir.*

Şəmkirdəki Heydər Əliyev Mərkəzində keçiriləcək turnirin ilk oyunları aprelin 20-də baş tutacaqdır. «A» turnirində hazırkı dünya çempionu Maqnus Karlsen (Norveç), FİDE-nin beynəlxalq reytinqində beşinci yeri tutan Fabiano Karuana (İtaliya), həmin reytinqdə yeddinci yeri tutan Hikaru Nakamura (ABŞ), iddiaçıların turnirində ikinci yeri tutmuş Sergey Karyakin (Rusiya), həmin turnirdə dördüncü yeri tutmuş Şəhriyar Məmmədyarov və qrossmeyster Teymur Rəcəbov (hər ikisi Azərbaycandandır) çıxış edəcəklər. «B» turnirində Azərbaycan qrossmeysterləri Rauf Məmmədov, Eltac Səfərli, Qədir Hüseynov, Vasif Durarbəyli, Nicat Abbasov və beş əcnəbi şahmatçı - Van Hao (Çin), Pavel Elyanov (Ukrayna), Etyen Bakro (Fransa), Radoslav Voytaşek (Polşa) və hazırkı Avropa çempionu Aleksandr Motılyov (Rusiya) çıxış edəcəklər.

## mozaika

sağlam hayat tarzi

# Yaz allergiyası



Fəsil dəyişikliyi ilə birgə insanların qidalanma vərdişləri və həyat nizamının dəyişməsi immun sisteminə ciddi təsir edir. Yaz aylarında çiçək tozları atmosferə yayılaraq ağız, burun, göz və ciyərlərimizə qədər çatır. Xüsusilə küləkli havalardan sonra havaya daha çox polenler dağıldığı üçün şikayətlər çoxalır. Ən tipik bahar allergiyası allergik rinitdir. Çiçək tozu, kif, toz, heyvan tükü və s. burun və gözlərdə qaşıntı, gözlərdə yaşarma, qızartı, burunda tutulma və axıntı, ağciyərdə isə sekresiyanın artması, öskürək və s. narahatlıqlara səbəb olur.

diqqət!

## Bahar allergiyasından qorunmaq üçün:

**1.** Siqaret çəkməyin və yanınızda siqaret çəkilməsinə icazə verməyin.
**2.** Tozlu və çiçək tozlarının olduğu mühitdə olmamağa çalışın. Əgər olmaq məcburiyyətindəsinizsə, maskadan istifadə edin. Çiçək tozu ən çox səhər erkən saatlarda və axşam saatlarında təsirli olur. Bu saatlarda çölə çıxmamağa çalışın.
**3.** Tozcuqların uçduğu mövsümdə qapı və pəncərələri açmayın. Küləkli havalarda evdə qalmağa çalışın.
**4.** Burnun xarici qisminə və göz ətrafına incə bir təbəqə şəklində vazelin çəkin, çiçək tozları vazelinə yapışmır və beləcə, buruna daxil olması əngəllənir.
**5.** Kondisionerlərdəki filtrləri hər ay dəyişdirin, allergiya əleyhinə xüsusi filtrlər alın.
**6.** Evinizdə tüklü heyvan və bitki saxlamayın.
**7.** Bədəninizin təmizliyinə diqqət yetirin, tez-tez əl-üzünüzü yusanız, bədəninizə daxil olan çiçək tozlarına maneə yarada bilərsiniz.
**8.** Yatmazdan əvvəl duş qəbul etmək, saçları yumaq faydalı olar.
**9.** Çiçək mövsümündə geyiminizi açıq havada qurutmayın.
**10.** Tüklü və yun adyal yerinə pambıq və sintetik adyallardan istifadə edin.
**11.** Toz saxlayan kilim, xalça kimi ev əşyalarından istifadə etməyin.
**12.** Çiçək mövsümündə avtomobildə gedərkən pəncərələri bağlı saxlayın.

*Yaz allergiyası zamanı dərman müalicəsinə müraciət edə bilərsiniz. Həkimin təyin etdiyi dərmanları bahar mövsümü boyunca istifadə etməyiniz məsləhətdir. Mövsümi çiçək allergiyaları zamanı həkim nəzarəti altında immunitet yaradan və hər il təkrarlanması lazım olan peyvəndlər vurula bilər.*

maraqlı

# Ən gözəl yuxuları ay bədirlənəndə görmək olur

*Hertfordşir Universitetinin alimləri müəyyənləşdirmişlər ki, insanlar ən gözəl və qəribə yuxuları ay bədirlənəndə görürlər. Mütəxəssislər psixologiya sahəsində ekspert Riçard Uayzman ilə birlikdə minlərlə könüllünün yuxusunu təhlil etmişlər. Eksperiment ay bədirlənən vaxt aparılmışdır.*

Məlumdur ki, insan orqanizmi bütün sutka ərzində işləyir. Sübut edilmişdir ki, gecələr baş beyni gündüzlə müqayisədə eyni işi yerinə yetirir. Beyin hətta dərin yuxu zamanı da səs düzülüşünü mənimsəməyə və onları aydınlaşdırmağa qadirdir. Alimlər qeyd etmişlər ki, ay bədirlənən dövrdə insanın baş beyni daha fəal olur və daha güclü qavrayır. Məhz buna görə də həmin dövrdə biz daha rəngarəng, yaddaqalan və rəngli yuxular görürük.



texnologiya



# Üçölçülü printer kəllə sümüyü «çap edib»

AzərTAc newsgeorgia.ru saytına istinadən xəbər verir ki, Niderland Krallığında cərrahlar sümük toxumasının nadir xəstəliyindən əziyyət çəkən 22 yaşlı qıza kəllə sümüyünün üçölçülü protezini implantasiya etməyə müvəffəq olmuşlar.

Xəstəlik səbəbindən qızın kəllə sümüyü 5 santimetr qalınlaşmışdır ki, bunun nəticəsində sümük beyinə təzyiq göstərməyə başlamış, qız görmə qabiliyyətinin itirmiş, güclü baş ağrılarına düçar olmuşdur.

Kəllə sümüyünün yuxarı hissəsini ləğv etməyə qərar verən həkimlər onu üçölçülü printerlə yaradılmış plastik implantla əvəz etmişlər. 23 saat davam edən əməliyyat Utrexta şəhər Universitetinin Tibb Mərkəzində aparılmışdır. Həkimlərin rəyinə görə, bu, orqanizmin kəllə sümüyü köçürməsini imtina etmədiyi ilk hadisə olmuşdur.

Kəllə sümüyünə ideal dərəcədə uyğun gələn protezi yaratmağa xüsusi çap metodikası imkan vermişdir.

Aparılmış əməliyyatdan sonra pasiyentin görmə qabiliyyəti bərpa olunmuşdur.

# «Uçan avtomobil» satışda

*Niderlandın «PAL-V Europe NV» şirkətinin mütəxəssisləri dünyada ilk dəfə olaraq «Qelisikl» adlanan uçan avtomobili uğurla sınaqdan çıxarmışlar.*

İki yerlik «Qelisikl» klassik vertolyotla üçtəkərli avtomobili özündə birləşdirən hibriddir. Nəqliyyat vasitəsinin üstün cəhətlərindən biri odur ki, çox asanlıqla mövcud uçuş-enmə zolaqlarından və yollarından istifadə edə bilir. Yəni avtomobil üçün ayrıca yol çəkməyə ehtiyac qalmır və rahat idarə olunur.

Vertolyot-maşının texniki göstəriciləri də yüksəkdir: 8 saniyədə 100 kilometr sürət yığa bilməklə, bir dəfəyə 350-500 kilometrədək məsafə qət etmək iqtidarındadır.

Avtomobil benzinlə yanaşı, biodizel və bioetanol işlədir. Hazırda dünyada analoqu olmayan «Qelisikl»in satış qiyməti 295 min ABŞ dollarıdır.

## Müdriklər deyib ki...



***«Daim minnətdarlıq etməkdən daha pisi onu qəbul eləməkdir».***

**Uilyam Folkner (1897-1962)**